27 sentyabr 2023 №71 (2040)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Türkiyə əlaqələri ən yüksək zirvədədir



Xəbər verildiyi kimi, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 25-də Azərbaycanda rəsmi səfərdə olub. Naxçıvan şəhərində rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü keçirilib.

Görüşdən sonra Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoyublar.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalanıb. Dövlət başçıları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzalayıblar.

Türkiyənin bu ilin fevralında zəlzələdən böyük ziyan görmüş Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında əməkdaşlıq sazişi və iki ölkə arasında energetika sahəsində əməkdaşlığa dair anlaşma memorandumu da imzalanıb.

davamı səh. 2-də

# Şuşa – Türk dünyasından İslam dünyasına

### Qala-şəhərimiz 2024-cü ildə müsəlman aləminin "mədəniyyət paytaxtı" olacaq




Xəbər verdiyimiz kimi, 25-26 sentyabr tarixlərində Qətər Dövlətinin paytaxtı Doha şəhərində İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı keçirilib.

"İslam dünyasında mədəni fəaliyyətin yenilənməsinə doğru" mövzusuna həsr olunan konfransda Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

Tədbirdə Azərbaycanın qədim söz-sənət beşiklərindən olan Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb. Konfrans iştirakçılarının yekdil qərarı ilə Qarabağımızın incisi Şuşa şəhəri 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülüb.

2020-ci ilin 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu tərəfindən böyük qəhrəmanlıqla erməni işğalından azad olunan qala-şəhərimizin tarixi şöhrəti özünə qaytarılır. Prezident İlham Əliyevin nəzarəti və diqqəti ilə Şuşa şəhərinin qısa müddət ərzində yenidən qurulması, həyatın bu qədim yurdumuza qaytarılması, eyni zamanda Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən şəhərdəki tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan intensiv işlər, Şuşanın beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsi müsəlman ölkələri və ICESCO tərəfindən yüksək dəyərləndirilib.

Bildirilib ki, Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası ölkəmizdə olub və Şuşada aparılan bərpa-quruculuq işlərini təhlil edib.

Şuşanın bu statusa namizədliyinin irəli sürülməsi prosesinə ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən mühüm dəstək verilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci il Azərbaycanda "Şuşa İli" elan olunmuşdu. Bu il isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı"dır. Qala-şəhərimiz artıq üçüncü ildir beynəlxalq tədbirlərə, böyük mədəniyyət layihələrinə ev sahibliyi edir, bu qədim yurdumuzdan dünyaya sülh, birlik və humanizm mesajları verilir.

Xatırladaq ki, 2009-cu ildə Bakı şəhəri, 2018-ci ildə isə Naxçıvan şəhəri "İslam mədəniyyətinin paytaxtı" missiyasını yerinə yetirib.

mövzunun davamı səh. 3-də

## Sentyabrdan-sentyabra: qətiyyətlə yazılan tarix

### "Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar. Səbrimiz tükəndi, dedim irəli..."



"Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Biz hər an öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq və məhz bu məqsədlə güclü ordu yaradırıq. Ordunun güclənməsi üçün nə lazımdırsa, biz bundan sonra da edəcəyik. Biz sülh danışıqlarını davam etdiririk. Ancaq, eyni zamanda, güclü ordunun yaranması bizə imkan verir ki, biz istənilən yolla ədaləti bərpa edək və öz doğma torpaqlarımızı işğalçılardan azad edək...".

Prezident İlham Əliyev bu sözləri 15 il öncə, 2008-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Birinci Qarabağ müharibəsindən sonra, atəşkəs dövründə keçirilən ilk paradında demişdi.

Qarabağ müharibəsində atəşkəsin 14 ili arxada qalmış, amma nə savaş bitmiş, nə də sülh danışıqları bir nəticə vermişdi. İrəlidə hələ neçə belə illər vardı. Eyni zamanda, bir gerçək o vaxt da bəlli idi: diplomatiya o vaxt təsirli olur ki, onun arxasında düşmənin hesablaşdığı güc dayanmış olsun. Və bir gün o güc meydanda öz sözünü deməldir...

2020-ci ilin 27 sentyabrında o gün yetişdi...

Ərazi bütövlüyümüzə əbədi və dərin anlamı ilə – Azərbaycan Respublikasının işğal altında olan torpaqlarının azad edilməsi uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü – Anım Günü kimi yazılan bu tarix milli yaddaşda bir həqiqət anı, qırılma nöqtəsi idi. Bundan sonra geri dönüş olmazdı.

Və Ali Baş Komandan İlham Əliyev o əmri verdi: "Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli...".

27 sentyabrda televiziya ilə xalqa müraciət edərək Vətən müharibəsinin başladığını bildirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağ məsələsinin milli məsələ, bu məsələnin həllinin isə bizim üçün tarixi vəzifə olduğunu bəyan etdi: "Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun... Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir...".

davamı səh. 2-də

## Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüş

Sentyabrın 25-də Xocalı şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun bölgənin erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü keçirilib.

Konstruktiv mühitdə keçən görüşdə sentyabrın 21-də Yevlax şəhərində müzakirə edilmiş məsələlərin həlli istiqamətində atılan addımlardan, xüsusilə qısa müddətdə humanitar yardımın təminatı, yanacaq təchizatı və elektrik verilişinin bərpasından razılıq ifadə olunub.

Ramin Məmmədov bundan sonrakı mərhələdə həyata keçiriləcək tədbirlər haqqında məlumat verib. Qeyd olunub ki, bəzi yaşayış məntəqələrində tənha vəziyyətdə müəyyən edilmiş ermənisilli yaşlı sakinlərə ilkin tibbi yardım göstərilib və onlar hökm nəzarəti altında saxlanılırlar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin həmin şəxslərlə görüşünə şərait yaradılması, onların ailə üzvlərinə və ya müvafiq tibb müəssisələrinə təhvil verilməsi təklif edilib.

davamı səh. 2-də

## Azıx və Tağlar mağaraları Dünya İrs Komitəsinin İlkin Siyahısında



Azərbaycanın Qarabağ bölgəsində, Xocavənd rayonu ərazisində yerləşən qədim insan məskənləri – Azıx və Tağlar mağaraları UNESCO-nun Dünya İrs Komitəsinin İlkin Siyahısına daxil edilib.

Bu barədə qərar Dünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən (10-25 sentyabr) 45-ci sessiyasında qəbul olunub.

Dünya İrs Komitəsinin İlkin Siyahısı (Tentative List) gələcəkdə UNESCO-nun Dünya İrs Siyahısına nominasiyaların hazırlanması üçün bir mərhələ sayılır.

Xatırladaq ki, Dünya İrs Komitəsinin Ər-Riyad şəhərində keçirilən sessiyasında Azərbaycanın Hirkan Milli Parkını əhatə edən "Hirkan meşələri" transmilli (İranla birgə) nominasiyası və "Xınalıq və Köç yolu mədəni landşaftı" adlı milli nominasiya Dünya İrs Siyahısına daxil edilib.

## İstiqlal Muzeyində "Tarixin izi ilə"

Sentyabrın 26-da Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşərək canlarından keçmiş şəhidlərin əziz xatirəsinə həsr olunmuş "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində "Tarixin izi ilə" adlı növbəti tədbir-sərgi keçirilib.

Tədbirdə İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli, şəhid kapitan Kamil Şirinovun atası Əliş Şirinov, şəhid kapitanlar Fərid Dursunovun həyat yoldaşı Məryəm Dursunova, Samir Mikayıllının anası Sabir Mikayıllı, şəhid baş leytenant İlqar Vəliyevin oğlu Vəli Vəlizadə, şəhid əsgər Əfqan Nəsirovun anası Kəmalə Nəsirova və başqaları çıxış ediblər.

Bildirilib ki, Azərbaycan xalqı Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davamçısı Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək 30 illik Vətən həsrətinə son qoyub.

Qeyd edilib ki, Azərbaycan dövləti tərəfindən Vətən torpaqlarının işğaldan azad olunmasında xidmətlər göstərmiş qəhrəmanlarımıza və onların ailə üzvlərinə daim diqqət və qayğı göstərilir.

Sonra iştirakçılar oktyabrın 3-dək davam edəcək sərgi ilə tanış olublar.



## 80-dən 49 çıxsaq...




Cəmi 49 il yaşayan və başqalarının iki qırx doqquza sığdıra bilmədiklərini bizlərə miras qoyub gedən Xalq artisti, görkəmli kinoaktyor və rejissor Şahmar Ələkbərovun (1943-1992) 80 illik yubiley gecəsi...

Nizami Kino Mərkəzində belə sıxlığı çoxdan görmürdüm. Parter, lojalar, yuxarı zal – qısacası, iynə atsan yerə düşməzdi. Onlarla insan da ayaq üstə. Foyedəki böyük lövhənin qarşısı, monitordakı şəkli ilə dolan boş səhnə gül dəstələrinə qərq olmuşdu.

səh. 5

"Bülbül vokal məktəbi" filmi təqdim olundu




səh. 3

IV "Sevil" Beynəlxalq Qadın Sənədli Film Festivalı başa çatıb

səh. 5

Bəstəkarlar İttifaqında kamera musiqisi axşamı



səh. 3

# Azərbaycan-Türkiyə əlaqələri ən yüksək zirvədədir

“Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq”




*əvvəli səh. 1-də*

### Münasibətlərimizin tarixində önəmli hadisə

Sənədlərin imzalanması mərasimindən sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev bildirib ki, imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək.

“Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, – o zaman o, Naxçıvanın başçısı idi, – Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

Ancaq 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq”, – deyə İlham Əliyev bildirib.

Ölkə başçısı qeyd edib ki, üç gün sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcək: “Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır”.

Azərbaycanın artıq Qarabağ bölgəsində də öz suverenliyini tam təmin etdiyini diqqətə çatdıran İlham Əliyev deyib: “Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik. 24 saat ərzində, ondan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir”.

### Ən ali kürsüdən qardaş dəstəyi

“Əziz qardaşım, bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu həm həqiqətdir, eyni zamanda beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. İkinci Qarabağ müharibəsi zamanı Siz və bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında “Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır” deməyiniz bir çoxları üçün ciddi siqnal idi, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq.

İki il bundan əvvəl Şuşa şəhərində – uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində Şuşa Bəyannaməsi – müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə biz indi əlaqələrimizin çox fəal dövrünü yaşayırıq”, – deyə Prezident İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir: “Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir.

Biz bu gün Sizinlə, eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq və mən Sizə məlumat verdim ki, yaxın aylarda bu yolun imkanları 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla gələn ilin sonunda başa çatmalıdır. Yəni, bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda, regional məsələləri də düz istiqamətə yönəldirik...”.

### Bölgədə normallaşma üçün yeni fürsət...

Prezident seçkilərindən sonra ilk səfərimi iyun ayında Şimali Kipr Türk Respublikası ilə birlikdə Bakıya etmişdim. Bu dəfə sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram. 2008-ci ildəki son səfərimdən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim. Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm.

Bu fikirləri isə azərbaycanlı həmkarı ilə mətbuata bəyanatında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: “Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. “Bir millət, iki dövlət” şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir. Naxçıvan tarix boyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq”.

Azərbaycanın İkinci Qarabağ müharibəsindən keçən üç ilə yaxın müddətdə dəfələrlə ifadə etdiyi legitim və haqlı narahatlıqlarının qarşılanmadığını bildirən Türkiyənin lideri deyib: “Azərbaycan nəticədə özünün suveren ərazilərində antiterror tədbirləri həyata keçirmək məcburiyyətində qalıb. Bu tədbirlərin son dərəcə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur...

Naxçıvanın görkəmli şairi, Mehmet Akifin əqidə yoldaşı mərhum Hüseyn Cavidin bir əsr əvvəl etdiyi bu duasının qəbul olunduğunu görməyin xoşbəxtliyini yaşadıq:

*Hər bəladan əsirgə yurdumuzu,*
*Kamran eylə şanlı ordumuzu...*

Müzəffər Azərbaycan Ordusunu həm tarixi Qələbəsi, həm də mülki şəxslərə göstərdiyi humanist davranışı münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər.

Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir”.

***

Sentyabrın 25-də Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında da iştirak ediblər.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət başçılarına raport verib.

Prezidentlər hərbi kompleksin rəmzi açılışını bildirən lenti kəsiblər.

Məlumat verilib ki, hərbi kompleks 1 mərkəz, 8 təmir müəssisəsi və 10 sahədən ibarətdir. Burada müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda, idarəetmə, yataqxana və təminat binası inşa edilib.

***

Türkiyə Prezidentin Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 25-də başa çatıb. Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısını Prezident İlham Əliyev yola salıb.

## Qarabağ bölgəsi ilə bağlı İşçi qrup yaradılıb

Sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında İşçi qrup yaradılıb.



Bu barədə Prezident Administrasiyası məlumat yayıb.

İşçi qrup Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı çərçivəsində fəaliyyət göstərir.

İşçi qrupun tərkibinə İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, “Azərenerji” ASC, “Azərişıq” ASC, “Azəriqaz” İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar daxildir.

## Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüş

*əvvəli səh. 1-də*

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin sosial-humanitar, iqtisadi və infrastruktur məsələlərin həlli üzrə rəhbərlik etdiyi işçi qrupun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Xankəndi şəhəri də daxil olmaqla, ərazidə kommunal, səhiyyə xidmətləri və digər mülki fəaliyyətlə məşğul olan müvafiq nümayəndələrlə görüşünün təşkili və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunub.

Təklif olunub ki, Xankəndi şəhəri yaxınlığında və ya Xocalı istiqamətində qurulması təklif olunan səhra hospitalında səhiyyə xidmətləri Azərbaycan və erməniəsilli tibb heyəti tərəfindən birgə təşkil edilsin. Həmçinin Azərbaycan və erməni xidmət personalı tərəfindən mobil qida təminatı xidmətinin yaradılması təklif edilib.

Xroniki ağır xəstəliklərdən əziyyət çəkən və ya xüsusi cərrahiyyə əməliyyatına ehtiyacı olan şəxslərə zəruri tibbi yardımın göstərilməsinə hazırlıq ifadə olunub.

Bununla yanaşı, görüşdə Azərbaycan və erməniəsilli tibb işçilərindən ibarət səyyar birgə həkim briqadalarının formalaşdırılması, həmin briqadalar tərəfindən ucqar kəndlərdə tənha və tibbi xidmətə ehtiyacı olan şəxslərə xidmət göstərilməsinin vacibliyi vurğulanıb.

Görülmüş işlərin yekunlarının müzakirəsi və gələcək addımları müəyyənləşdirmək məqsədilə tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

## Sentyabrdan-sentyabra: qətiyyətlə yazılan tarix

“Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar. Səbrimiz tükəndi, dedim irəli...”

*əvvəli səh. 1-də*

Sonrakı müddətdə Ali Baş Komandan daha on dəfə televiziya ilə xalqa müraciət etdi. Bu müraciətlərin hər biri qalibiyyət soraqlı idi...

30 ilə yaxın torpaqlarımızı işğal altında saxlayan Ermənistanın silahlı qüvvələri Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında 43 gün tab gətirə bildi. 44-cü gün işğalçı ölkənin rəhbərliyi faktiki kapitulyasiya aktını imzalamağa məcbur oldu.

“Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur” – Prezident İlham Əliyev sentyabrın 27-dən davam edən Vətən müharibəsinin qalibiyyət xəbərini noyabrın 10-da gecəyarısı xalqa müraciətində bu sözlərlə çatdırdı.

“İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq” – bu isə Prezident İlham Əliyevin Vətən müharibəsinin başlanmasının birinci ildönümündə, 27 sentyabr – Anım Günü ilə əlaqədar xalqa müraciətindəndir.

***

...Böyük savaş bitmişdi, amma tarixi məğlubiyyətdən, görünür, hələ tam dərsini almayan Ermənistanda, erməni cəmiyyətində revanşizm işartıları qalmışdı. Məhz bu səbəbdən Azərbaycan Ordusu 2021-2022-ci illərdə qarşı tərəfin, xüsusilə sərhəd bölgələrində təxribatlarına sərt və adekvat tədbirlərlə – lokal əməliyyatlarla cavab verməyə məcbur oldu. Bunlardan düşmən üçün ən təsirlisi 2022-ci ilin 13-14 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribata verilən cavab idi. Bundan sonra Ermənistanın siyasi-hərbi rəhbərliyi Azərbaycanla sərhəd boyunca artıq boyunun ölçüsünü aldı və özü üçün müəyyən nəticələr də çıxardı.



Amma Ermənistanın Qarabağda, 2020-ci ilin 10 noyabrından sonra Rusiya sülhməramlılarının müvəqqəti çətiri altında ordu tör-töküntüsü və İrəvanla yanaşı, qeyri paytaxtlardan da bəslənən qondarma rejim hələ boyunun ölçüsünü almamışdı. Bu üç ildə rəsmi Bakı o “boz zona”da cərəyan edən proseslərə, hərbi-kriminal xuntanın sülhməramlılarının kürəyi arxasındakı əməllərinə kifayət qədər təmkin göstərdi. Vəziyyəti diplomatik vasitələrlə, siyasi çağırışlarla, humanitar jestlərlə çözmək üçün çox cəhdlər edildi. Amma görünən o idi ki, qarşıdakı tərəfin anladığı dil başqadır.

2023-cü il sentyabrın 19-na keçən gecə hərbi-kriminal xuntanın Xocavənd rayonu ərazisində Azərbaycanın polis əməkdaşlarına və mülki şəxslərə (yol tikintisi işçilərinə) qarşı törədilən qanlı təxribatlardan sonra bu səbrin də sonu gəldi...

Azərbaycan Silahlı Qüvvələri bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı və 24 saat tamam olmamış, Qarabağdakı xunta ağ bayrağını qaldırdı.

27 sentyabrdan (2020), 13-14 sentyabrdan (2022) sonra bir də 19-20 sentyabr (2023) Qarabağla anılan tarixə düşdü.

“Qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi...” – 21 sentyabrda Prezident İlham Əliyev xalqa müraciət etdi və 24 saatlıq əməliyyatın nəticəsini diqqətə çatdırdı: Azərbaycan, nəhayət, Qarabağda suverenliyini tam bərpa edir.

***

...Əslində, tarixə nəzər salsaq, görərik ki, Ermənistanın və davakar erməni millətçiliyinin Qarabağ röyası, Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq iştahası da 32 il əvvəl elə bu ay boy vermişdi. Ermənilərin 1988-də başlayan siyasi avantürası 1991-ci ilin 2 sentyabrında Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı açıq təhdidə keçmiş, Dağlıq Qarabağda qondarma “respublika” elan olunmuşdu.

Və tarixin erməni cəmiyyətinə istehzasına bax ki, dünyanın bir çox yerlərindən də bəs deyincə bəslənən bu avantüraya da 32 il sonra sentyabrda – özü də Ermənistanın dövlət bayramı – “Müstəqillik günü” (21 sentyabr) nöqtə qoyuldu. O gün Ermənistanın Qarabağdakı qondarma rejiminin faktiki süqutu oldu. Qarabağın erməni əhalisinin təmsilçiləri isə həmin gün Yevlax şəhərində Azərbaycanın rəsmiləri ilə bir masa ətrafında (və Azərbaycan bayrağı önündə) əyləşdilər.

Vaxt var idi, erməni “başbilənləri” Azərbaycana qarşı hədələyici bəyanatlar verərkən Qarabağda ikinci müharibə başlayarsa, bu dəfə Yevlaxadək gələcəklərini deyirdilər.

İkinci Qarabağ müharibəsi 2020-ci ilin 27 sentyabrında başladı və 44 gün çəkdi. Amma biz ermənilərin Yevlaxa gəlmək arzularını da, necə deyərlər, ürəklərində qoymadıq. Gəldilər, hətta Azərbaycan bayrağı önündə fotoları da dünyaya yayıldı. Bundan sonrası da məlumdur. Ya o bayrağın atında Azərbaycan dövlətinin vətəndaşı kimi yaşamaq, ya da... Laçın yolu açıqdır...

**Vüqar Orxan**

# Ölkəmizin ICESCO ilə əməkdaşlığı ildən-ilə möhkəmlənir

## Bu il Bakıda təşkilatın regional ofisinin açılması nəzərdə tutulur

Qətər Dövlətinin paytaxtı Doha şəhərində 25-26 sentyabr tarixlərində İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı keçirilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli sentyabrın 26-da konfransda çıxış edib.

Nazir konfransa yüksək səviyyədə ev sahibliyi etdiyinə və qonaqpərvərliyə görə Qətər Dövləti Hökumətinə və ICESCO rəhbərliyinə, bu ölkənin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Hamad Saniyə təşəkkürünü bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın bu təşkilatla əməkdaşlığına xüsusi önəm verir. Eyni zamanda ölkəmizin ICESCO ilə əməkdaşlığı Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın yaxından dəstəyi ilə daha da möhkəmlənir və genişlənir: "Əlaqələrimizin möhkəmləndirilməsində təşkilatın baş direktoru Salim bin Məhəmməd əl-Malikin də səyləri təqdirəlayiqdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində Bakıda bu il ICESCO-nun Regional ofisi açılacaq və bu da ICESCO ilə münasibətlərin, bütünlükdə təşkilatın gündəliyinin bölgədə təqdim edilməsi baxımından çox vacib bir addımdır".



Adil Kərimli Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" təşəbbüsünə ICESCO-nun verdiyi davamlı dəstəyin ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib. Qeyd olunub ki, təşkilat 2011-ci ildən ölkəmizdə keçirilən Dünya Mədəniyyətlərarası Dialoq forumlarında yüksək səviyyədə təmsil olunur. ICESCO-nun 2024-cü ildə ölkəmizdə keçiriləcək növbəti forumda da iştirakının əhəmiyyətli olacağı diqqətə çatdırılıb.

Azərbaycanın tarixi-mədəni zənginlikləri və İslam irsi barədə məlumat verən Adil Kərimli qeyd edib ki, ölkəmizdə İslam mədəniyyəti təkcə qədim dini tikililərdə, onun memarlığında deyil, həm də qeyri-maddi irs və adət-ənənələrimizdə, xalq yaradıcılığında, ədəbiyyat, musiqi, rəqs, xalçaçılıq, tətbiqi sənət, kino və s. sahələrdə özünü göstərir.

Daha sonra çıxışda Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 illik işğalı zamanı buradakı tarixi-mədəni irsin tamamilə dağıdıldığı, mədəni və dini irsin yer üzündən silindiyi, yaxud mənimsəməyə məruz qaldığı diqqətə çatdırılıb. Bölgədə mindən artıq tarixi abidə, o cümlədən 60-dan çox məscidin yerlə yeksan edildiyi vurğulanıb.

Münaqişənin başa çatmasına baxmayaraq, Ermənistan hərbi birləşmələrinin qalıqları Azərbaycan ərazilərində təhlükəsizliyə və sülhə təhdid yaradırdı. Belə ki, 2020-ci ilin noyabr ayından Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində Ermənistan hərbi birləşmələrinin yerləşdirdiyi minalar nəticəsində əksəriyyəti mülki şəxslər, o cümlədən jurnalistlər də olmaqla 300-dən çox azərbaycanlı həlak olub və yaralanıb. Buna görə də Azərbaycan ötən həftə lokal antiterror tədbirlərinə başlamaq qərarına gəlib və 24 saat ərzində qanunsuz qüvvələrin təslim olmasına və tərk-silah edilməsinə nail olub. Artıq Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin reinteqrasiya prosesinə başlanılıb. Bu çərçivədə Azərbaycan Hökuməti yerli sakinlərə lazımi humanitar yardım göstərir, təhlükəsiz və dinc reinteqrasiya prosesinin təmin etmək üçün lazım olan bütün tədbirləri həyata keçirir.

Sonda nazir Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar qonaqları Şuşa ilə bağlı videomateriala baxmağa dəvət edib. Şuşa şəhərinin mötəbər tribunadan videotəqdimatı iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

# Görkəmli Azərbaycan və qazax ədiblərinin yubileylərinə həsr olunan konfrans

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər təşkil edilir. Sentyabrın 22-də Milli Kitabxanada qazax ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı, ictimai xadim Kemel Tokayevin (1923-1986) 100 illiyinə və XX əsr Azərbaycan ədəbiyyatının klassiki, görkəmli yazıçı, alim-pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) 115 illiyinə həsr olunmuş konfrans keçirilib.

Tədbirdə Kemel Tokayevin "Gec açılan atəş" və Mir Cəlal Paşayevin "Dağların ürəyi" kitablarının təqdimatı olub.

Konfransda iki ölkənin rəsmiləri, ədəbiyyat, mədəniyyət, elm xadimləri iştirak ediblər.



Qeyd edək ki, Kemel Tokayev Qazaxıstanın hazırkı Prezidenti Kasım-Jomart Tokayevin atasıdır. Tanınmış nasir, dramaturq uzun illər mətbuat sahəsində də çalışıb. 1941-1945-ci illər müharibəsinin iştirakçısı olub.

Konfransdan öncə iştirakçılar Kemel Tokayevin və Mir Cəlal Paşayevin yaradıcılığına həsr olunmuş kitab sərgisinə baxıblar.

Milli Kitabxananın direktoru Kərim Tahirov konfransı açaraq iştirakçıları salamlayıb.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək Milli Kitabxananın 100 illik yubileyi ilə bağlı tədbirlər çərçivəsində belə bir konfransın, eləcə də Azərbaycanın və Qazaxıstanın görkəmli ədiblərinin kitablarının təqdimatının keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Nazir Azərbaycan-Qazaxıstan münasibətlərinin dərin köklərə malik olduğunu vurğulayaraq yeni nəşrlərin də ədəbi-mədəni əlaqələrin inkişafına xidmət etdiyini deyib.

Qazaxıstan Prezidentinin müşaviri Malik Otorbayev iki ölkə xalqlarının ənənələrinin və mədəniyyətinin bir-birinə yaxın olmasını qeyd edib, Prezident Kasım-Jomart Tokayevin konfrans iştirakçılarına təbrik məktubunu oxuyub.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev də iki qardaş ölkənin qarşılıqlı əlaqələrindən danışaraq təqdimatı olan hər iki nəşrin əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, Kemel Tokayevin Azərbaycan dilində çap olunan "Gecə açılan atəş" və Mir Cəlal Paşayevin qazax dilində işıq üzü görən "Dağların ürəyi" kitabları iki qardaş xalqın ədəbi əlaqələrinin yaxınlaşmasına töhfə verəcək.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel vurğulayıb ki, iki ölkə prezidentlərinin etimada söykənən dialoqu sayəsində mövcud olan hərtərəfli əməkdaşlıq bu gün yeni səviyyəyə yüksəlib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyd edib ki, Kemel Tokayevin və Mir Cəlal Paşayevin yaradıcılığını birləşdirən önəmli amillər var – vətənpərvərlik və milli düşüncə. "Bu gün biz onları yad etməklə bərabər, gənc nəsillərimizə önəmli mesaj veririk və gənc nəsillərimizin belə böyük ədəbiyyat xadimlərimizi oxuması biz iki qardaş xalqın gələcəyi üçün çox önəmlidir", – deyə o bildirib.

Konfransda hər iki ədibin həyatı və yaradıcılığı haqqında məruzələr dinlənilib.

# BMA tələbələri üçün ustad dərsi



Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində keçirilən Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı davam edir. 10-dək ölkədən ifaçı və kollektivin qatıldığı festival rəngarəng konsert, təqdimat, tamaşa nümayişi, ustad dərsi və s. tədbirlərlə yaddaşlara yazılır.

Sentyabrın 26-da festival çərçivəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) kiçik zalında "Quatuor Diotima" (Fransa) simli kvarteti tərəfindən (kvartetin üzvləri: Yun-Peng Zhao-violin, Leo Marillie-violin, Franck Chevalier-viola, Alexis Descharmes-violonçel) ustad dərsi keçirilib.

Tədbirdə BMA-nın professor, müəllim və tələbə heyəti iştirak edib.

Əvvəlcə təhsil ocağının prorektoru Xalq artisti, professor Yeganə Axundova çıxış edərək fransalı musiqiçiləri təqdim edib.

Kvartetin üzvləri də öz növbəsində BMA-da olduqlarından məmnunluqlarını bildiriblər.

BMA-nın tələbələri Nərminə İsmayılova, Osman Mustafazadə, Humay Hacızadə, Ərol Rzayev G.Forenin "Fortepiano kvarteti"ni, Üzeyir Mahmudbəyli, Ümid Mustafazadə, Nihad Məmmədov, Əsmər Kərimli isə A.Vebernin "6 Bagatelles" əsərlərini ifa ediblər.

Ustad dərsi zamanı tələbələrə texniki çətin hissələr üzərində çalışmağın üsulları izah olunub, ifa edərkən hər bir səsin dərinliyini anlayıb sonra dinləyiciyə ötürmək, musiqi parçasını sanki danışıq dilinə tərcümə etməyin zəruri olduğu diqqətə çatdırılıb.

Ustad dərsi tələbələr tərəfindən rəğbətlə qarşılanıb.

**Nurəddin**

# Festivalın "Arşın mal alan"ı

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ənənəsinə uyğun olaraq, hər il yeni teatr mövsümünə görkəmli bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığına məxsus əsərlərdən biri ilə başlayır.

Sentyabrın 25-də Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində dahi bəstəkarın şedevrlərindən sayılan "Arşın mal alan" tamaşası nümayiş olunub.

Tamaşada əsas rollarda Xalq artisti Gülyaz Məmmədova, Əməkdar artistlər Cahangir Qurbanov, Gülüstan Əliyeva, Səbinə Vahabzadə ilə yanaşı, istedadlı gənc vokalçılar Fatimə Cəfərzadə, Ateş Qarayev, Taleh Yahyayev və başqaları çıxış ediblər.

Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, dirijoru Əməkdar incəsənət xadimi Sevil Hacıyeva və xormeysteri Savzixan Serderovdur.

# Payızın həzin notları




Bu il də zəngin proqramı olan Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının konsertlərindən biri sentyabrın 22-də Kamera və Orqan Musiqisi Zalında keçirildi.

Klassik musiqini sevənlər istedadlı pianoçu Zakir Əsədovun solo konsertinə toplaşmışdılar.

Payızın həzin notlarına köklənənlərin diqqətini zala cəmləməyə çalışan Z.Əsədovun ilk müraciət etdiyi əsər Lüdviq van Bethovenin 1 nömrəli sonatası (op2) oldu. Ardınca Klod Debüssinin "Berqamas" süitası, eləcə də "Kətan saçlı qız", "Feyerverk", "Kəsilmiş serenada", "Batmış kilsə", "Qar üzərində addımlar" prelüdləri səsləndi.

Dinləyiciləri tez-tez həyəcanlandırıb onların alqış sədalarından feyzyab olan ecazkar ifaçı Pyotr Çaykovski yaradıcılığından da yan keçmədi və onun məşhur "İlin fəsilləri" silsiləsindən "Barkarola" və "Oktyabr"ını dilləndirdi.

Konsert Üzeyir Hacıbəyli-Georgi Burşteyn vəhdətində "Koroğlu" operasının mövzularına "Fantaziya" ilə başa çatdı.

Xatırladaq ki, Zakir Əsədov 1986-cı ildə Ağstafa şəhərində anadan olub, Bülbül adına Orta İxtisas Musiqi Məktəbi (2005) və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını piano ixtisası üzrə (2009) məzunudur. Kövkəb Səfərəliyeva adına pianoçuların respublika müsabiqəsinin (2007) qalibidir.

2006-2013-cü illərdə "Con tempo" müasir musiqi ansamblının solisti olub. Pianoçu kimi bir çox xarici və respublika festivallarında iştirak edib. Fortepiano konsertləri də daxil olmaqla 50-dək müxtəlif həcmli fortepiano əsərinin ilk ifaçısıdır. 2018-ci ildə görkəmli pianoçu, Azərbaycan professional fortepiano məktəbinin görkəmli nümayəndələrin olan Georgi Şaroyevin (1890-1969) yaradıcılıq yoluna həsr olunan "Georgi Şaroyev fenomeni" adlı monoqrafiyası çapdan çıxıb.

**Həmidə**

# Bəstəkarlar İttifaqında kamera musiqisi axşamı

Azərbaycan Bəstəkarlar İttifaqının Ü.Hacıbəyli adına konsert salonunda Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində və kamera musiqisi konserti keçirilib.

Sentyabrın 22-də gerçəkləşən tədbiri sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı açaraq Azərbaycan Ordusunun Qarabağda uğurlu antiterror əməliyyatı barədə məlumat verdi. Dedi ki, dövlətimiz 24 saat müddətində öz məqsədinə çatıb, bizim olub. Uğur və qələbələr bizimlə olsa da, itkilərimiz də var. Sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Daha sonra kamera musiqilərindən ibarət proqram təqdim edildi.

Səid Qəninin fortepiano üçün "Adajio", İlahə Abdullayevanın tar və fortepiano üçün "Mistika", Tahir İbişovun "Gül surətə nəzər" romansı, Tural Məmmədlinin violin və fortepiano üçün "Tünd rənglərin palitrası", İlham Azmanlının fortepiano üçün "Novruz bayramı coşqusu", Vüqar Məmmədzadənin "Ayüzlü nigarım" romansı və Pikə Talıblının "İstiqlal triosu" əsərləri səsləndirildi.

Çıxışlar alqışlarla qarşılandı.

**Savalan**

# "Cadenza" orkestrinin konserti

Üzeyir Hacıbəyli festivalı çərçivəsində növbəti konsert proqramı sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində keçirilib.



"Cadenza" orkestrinin ifasında Rəhilə Həsənovanın "Yasəmən ləçəkləri", Ayaz Qəmbərlinin "Triptix", A.Vebernin "Simli kvartet üçün 6 baqatel op 9", Xəyyam Mirzəzadənin "Oçerklər – 63" əsərləri səsləndirilib.

Proqramda Rəna Fərhadova (piano), Fatimə Nəsirli (violin), Ucal Məmmədxan (zərb alətləri), Tural Quliyev (truba), Ümid Mustafazadə (violin), Nihad Məmmədov (violin), Üzeyir Mahmudbəyli (viola) və Əsmər Kərimli (violonçel) çıxış ediblər. Orkestrin bədii rəhbəri Türkər Qasımzadə, konsertmeysteri Samir Əsədovdur.

**Lalə**

# "Bülbül vokal məktəbi" filminin təqdimatı keçirildi



Dünya şöhrətli opera müğənnisi, Azərbaycan peşəkar vokal sənətinin banisi, keçmiş SSRİ-nin Xalq artisti Bülbülün (Murtuza Məmmədov; 1897-1961) vokal ənənələri haqqında film çəkilib.

Sentyabrın 26-da Bülbülün Memorial Muzeyində dahi sənətkara həsr edilən "Bülbül vokal məktəbi" adlı filmin təqdimatı keçirilib.

Tədbiri muzeyin direktoru Fərqanə Cabbarova açaraq qeyd etdi ki, bu gün "Bülbül vokal məktəbi" adlı filmin təqdimatı, həm də dahi sənətkarın anım günüdür: "Filmin ideya müəllifi Əməkdar artist, tanınmış vokal ifaçı Ramil Qasımovdur. Bülbül hələ sağlığında öz bilik və bacarığını gənc kadrların yetişməsinə həsr edib. Bunun üçün vokal sənəti nəzəriyyəsi, metodiki vəsaitlər, habelə mahnı ifaçılığı üzrə xüsusi vəsaitlər işləyib hazırlayıb".

Əməkdar artist Ramil Qasımov çıxışında Bülbülün vokal məktəbini yaşatmaq və gələcək nəsillərə çatdırmağın əhəmiyyətindən və məsuliyyətindən danışdı. Diqqətə çatdırdı ki, bugünkü və gələcək nəsillər bilməlidir ki, əldə etdikləri uğurların təməlində dahi sənətkarın böyük xidmətləri dayanır. Klassik vokal ənənələrimizin formalaşması, geniş vüsət alması, elmi vokal laboratoriyaların, indiki Bakı Musiqi Akademiyasında Solo oxuma və opera hazırlığı kafedrasının yaradılması Bülbülün adı ilə bağlıdır. Filmdə də bu məktəbin böyüklüyü və milli ifaçılıq ənənələrindən söhbət açılır. Ekran əsərində Xalq artistləri Yusif Eyvazov, Siyavuş Kərimi, Azər Zeynalov, Samir Cəfərov, musiqişünas, professor Lalə Hüseynova və Əməkdar artist Anar Şuşalı Bülbülün sənəti haqqında fikirlərini bölüşüblər.

R.Qasımov çıxışının sonunda filmin çəkilişində göstərilən köməyə görə Bülbülün Memorial Muzeyinə öz dərin təşəkkürünü bildirdi.

Çıxışlardan sonra film nümayiş olundu.

**S.Fərəcov**

# Musiqi məktəbinin kollektivi Gürcüstanda konsertlər verib

Abşeron-Xızı RMİ-nin tabeliyində fəaliyyət göstərən Abşeron rayon Xırdalan şəhər onbirillik Musiqi məktəbinin kollektivi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Gürcüstana səfər edib.



Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyi və Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin birgə təşkilatçılığı ilə gerçəkləşən səfər çərçivəsində məktəbin kollektivi Gürcüstanın müxtəlif bölgələrində təşkil olunan tədbirlərdə rəngarəng konsert proqramları ilə çıxış edib.

Ölkəmizin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev məktəbin kollektivinə təşəkkürünü bildirərək yeni yaradıcılıq uğurları arzulayıb.

# Türkiyəli rəssamın əsəri Naxçıvanda “Xan sarayı” kompleksinə hədiyyə olunub

Türkiyəli tanınmış rəssam, ebru ustası Nilgün Ayşecik Çevikin Möminə xatın türbəsinə həsr olunmuş əsəri “Xan sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə hədiyyə edilib.



Bu münasibətlə sentyabrın 21-də “Xan sarayı” kompleksində tədbir təşkil olunub.

Naxçıvan MR Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev çıxış edərək Ümummilli lider Heydər Əliyevin ölkəmizdə muzey sahəsinin inkişafına diqqət və qayğısı haqqında məlumat verib. Qeyd edilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı NMR-in bəzi tarix-memarlıq abidələrinin, eləcə də Möminə xatın türbəsinin UNESCO-nun Dünya İrs Siyahısına salınması istiqamətində iş aparılır.

Milli Məclisin deputatı, NMR Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva deyib ki, müəllif əsəri bu ilin mayında keçirilmiş “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalı zamanı ərsəyə gətirib.

Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya Möminə xatın türbəsinin türkiyəli bir çox rəssam tərəfindən kətan üzərinə köçürüldüyünü deyib.

Sonda tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

# Türk tarixi və mədəni irsinin dünyada təbliği

Masallı Tarix-Diyarşünaslıq Muzeyində “Azərbaycan və türk tarixinin, mədəni irsinin dünyada təbliğ olunması” mövzusunda tədbir keçirilib.



Muzeyin və Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı bölməsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin direktoru Əntiqə Tağıyeva türklərin öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında xüsusi yer aldığını vurğulayıb. Bildirib ki, azərbaycançılıq və türkçülüyün böyük bir tarixi keçmişi var. Bu tarixi dəyərlər müasir dünyada türk xalqlarının, dövlətlərinin birliyinə öz töhfəsini verir.

Digər çıxış edənlər türklərin bəşər sivilizasiyasının inkişafında, dünya ictimai-siyasi modelinin və ədəbi-bədii fikrinin formalaşmasındakı rolundan, tarixi kökləri olan zəngin mədəniyyətindən, dünya coğrafiyasındakı yerindən söz açıblar.

# “Gəlin, gələcəyimizi qoruyaq!”

Şirvan Tarix-Diyarşünaslıq Muzeyində “Gəlin, gələcəyimizi qoruyaq!” adlı tədbir keçirilib. Tədbirin məqsədi şagirdləri narkomaniya və psixotrop maddələrin yaratdığı problem və fəsadlar mövzusunda maarifləndirmək və onlar arasında sağlam həyat tərzini təbliğ etmək olub.



Tədbirdə çıxış edənlər dövrümüzün ağır bəlasına çevrilən narkomaniyanın zərərlərindən, insan sağlamlığı üçün təhlükələrindən, eləcə də narkotik vasitələrə yaranan asılılıqdan və ölkəmizdə narkomanlığa qarşı aparılan mübarizədən danışıblar.

Sonda narkomaniyanın törətdiyi fəsadları özündə əks etdirən videoçarx nümayiş olunub.

# Bölgələrdə “Heydər Əliyev İli” tədbirləri davam edir

Ağstafa Tarix-Diyarşünaslıq Muzeyi, 1 saylı Folklor klubu və Hüseyn Arifin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və mədəniyyət” mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu öndərin xatirəsi ehtiramla yad edilib, sonra dahi siyasətçinin Azərbaycan mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıdan söz açılıb.

Ağstafa rayon Heydər Əliyev Mərkəzində “Heydər Əliyev neft strategiyası” mövzusunda tədbir təşkil olunub. Tədbir iştirakçıları mərkəzin ekspozisiya zalında Ulu öndər Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə aid eksponatlarla tanış olublar. Çıxışlarda Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yeni neft strategiyasının ölkəmizin inkişafına və beynəlxalq miqyasda nüfuzunun artmasına töhfələrindən, 44 günlük Vətən müharibəsində qələbənin qazanılmasına təsirindən bəhs edilib.





***





Şirvan şəhər Heydər Əliyev Mərkəzi və şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Əsrin müqaviləsi” tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır” mövzusunda konfrans keçirilib. Çıxışlarda qeyd olunub ki, Ümummilli lider 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş verib. Bu dövrdən Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayıb. Bildirilib ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni neft strategiyasının zəfər təntənəsi bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

***

Quba Soyqırımı Memorial Kompleksi və Qusar rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli “Azərbaycanlıların soyqırımı haqqında” fərmanının tarixi əhəmiyyəti” adlı konfrans keçirilib. Çıxış edənlər Heydər Əliyevin Azərbaycanın inkişafında, ölkəmizlə bağlı tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında misilsiz xidmətlərindən söz açıblar. Sonda tədbir iştirakçılarına soyqırımı həqiqətlərini özündə əks etdirən kitab və bukletlər təqdim olunub.

***

Qəbələ rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Əsrin müqaviləsi” adlı tədbir keçirilib.





Çıxışlarda mövzu ilə əlaqədar məruzələr dinlənilib, “Əsrin müqaviləsi” – tarixi Zəfərimizə gedən yolun başlanğıcı” mövzusunda videoçarx nümayiş etdirilib.

***

Samux rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edənlər “Əsrin müqaviləsi”nin bağlanmasında Heydər Əliyevin rolundan, ölkənin iqtisadiyyatının dirçəldilməsi üçün atdığı qətiyyəti addımlardan, daha güclü ordunun qurulması, müdafiə sənayesinin inkişafı üçün görülən nəhəng işlərdən söz açıblar.

Goranboy rayon Mədəniyyət Mərkəzinin Balakürd, Qızılhacılı, Yeniyol və Xanqərvənd kənd Mədəniyyət evlərinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Heydər Əliyevin Goranboy rayonunun mərkəzində ucaldılmış abidəsi ziyarət olunub. Goranboy rayon Heydər Əliyev Mərkəzində davam edən tədbirdə ilk olaraq dahi liderin tarixi səfərlərini əks etdirən fotoşəkillər nümayiş etdirilib. Qeyd olunub ki, həm sovet dövründə, həm də müstəqilliyin bərpasından sonra Ulu öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini təmin edib.

***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş əl işləri sərgi-müsabiqəsi başa çatıb. Sentyabrın 22-də Naxçıvan Dövlət Rəsm Qalereyasında müsabiqənin yekun tədbiri və qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə çıxış edən NMR mədəniyyət nazirinin müavini Həsən Seyidov əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət mədəniyyət siyasətindən bəhs edib. Qeyd olunub ki, iki yaş qrupu üzrə keçirilən müsabiqədə 48 iştirakçının 68 əl işi “Ən yaxşı toxuma”, “Ən yaxşı rəsm” və “Ən yaxşı əl işi” nominasiyaları ilə qiymətləndirilib. Sonra qaliblər nazirliyin diplomu, nominasiyalar üzrə fərqlənən iştirakçılar isə fəxri fərmanla təltif ediliblər. Tədbirdə həmçinin Ümummilli liderin 100 illik yubileyi münasibətilə bu ilin aprel ayında keçirilmiş “Folklorumuzun söz yaddaşı” adlı bədii qiraət müsabiqəsinin qalibləri mükafatlandırılıb. Sonda sərgiyə baxış olub.

**Hazırladı: N.Məmmədli**

# “Xınalıq və Köç yolu” qoruğuna mediatur





Sentyabrın 25-26-da Dövlət Turizm Agentliyi tərəfindən KİV nümayəndələrinin “Xınalıq və Köç yolu” Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğuna tur təşkil olunub.

Mediaturun məqsədi bu ilin 18 sentyabr tarixində UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən Xınalıq və Köç yolu mədəni landşaftı ilə media mənsublarını tanış etmək, bu ərazinin dünya irsi elan edilməsinin üstünlükləri və turizm potensialına təsiri ilə bağlı ictimaiyyəti məlumatlandırmaqdan ibarət olub.

Mediatur zamanı jurnalistlərə dövlət başçısının 4 sentyabr tarixli sərəncamı ilə yaradılmış qoruqda həyata keçiriləcək layihələr, Qubanın Xınalıq kəndi ərazisində aparılan təmir və bərpa işləri barədə məlumat verilib.

Tur çərçivəsində artıq Xınalıq və Köç yolu ərazisinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin mədəni irsi hesab olunduğu, bu ərazinin UNESCO-nun Dünya İrs Siyahısına salınmasının Azərbaycan mədəni irsinin dünyada tanıdılmasına kömək olacağı, həmçinin dünyanın mədəni turizm sahəsində ölkəmizin mövqeyinin güclənməsinə xidmət göstərəcəyi qeyd edilib. Bu mühüm hadisənin öz növbəsində ərazinin turizm potensialının reallaşdırılmasına yardım edəcəyi, köç yolunun keçdiyi kənd və qəsəbələrin ərazisində turizm sahəsində özünəməşğulluğun inkişafına vəsilə olacaq.

Qeyd olunub ki, UNESCO-nun qərarı Xınalıq sakinlərinin köçəri mədəniyyətinin tanıdılmasına, o cümlədən Köç yolu üzərindəki əsrlərlə yaşı olan maddi və qeyri-maddi mədəni irs nümunələrinin qorunmasına mühüm töhfə verəcək.

Bildirilib ki, “Xınalıq və Köç yolu” qoruğunun yaradılması həm yaylaq, həm qışlaq, həm də mövsümi köç yolunda ekoturizmin inkişafına xidmət edəcək, burada kempinq, hayking kimi turizm məhsullarının əhatə edən turizm sənayesinin inkişafına təkan olacaq.

# Qəbələ və İmişlidə film təqdimatları

Qəbələ rayon Mədəniyyət Mərkəzində “Şəhid Analarına Dəstək” İctimai Birliyinin təşkilatçılığı ilə “Zəfərin şahinləri – şəhidlər qonaq gəlib” layihəsi çərçivəsində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr edilən “Missiya” qısametrajlı filminin təqdimat mərasimi keçirilib.

Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivlərinin, şəhid ailələrinin, qazi və müharibə iştirakçılarının, rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Çıxışlarda Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılan Vətən müharibəsində şəhid olanların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyi qeyd edilib, işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərindən danışılıb, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıdan bəhs olunub.

Sonra film nümayiş etdirilib.

***

İmişli rayon Heydər Əliyev Mərkəzində şəhid mayor Emin Süleymanovun xatirəsinə həsr edilmiş “Biz həmişə sizinləyik!” adlı qısametrajlı bədii-sənədli filmin təqdimatı olub.

Bildirilib ki, film Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Qayıdış” İctimai Birliyi tərəfindən lentə alınıb. Filmin layihə rəhbəri Şəkər Tağıyeva, ssenari müəllifi Xaqani Əliyev, rejissoru Namiq Ağayevdir.

Vətən müharibəsinin şəhid mayoru Emin Süleymanovdan bəhs edən bədii-sənədli filmdə qəhrəmanın uşaqlıq, gənclik illəri, Azərbaycan Ordusunun zabiti kimi keçdiyi şərəfli həyat yolu işıqlandırılıb.

# 80-dən 49 çıxsaq...

## Şahmar Ələkbərovun yubiley gecəsi keçirildi

Cəmi 49 il yaşayan və başqalarının iki qırx doqquza sığdıra bilmədiklərini bizlərə miras qoyub gedən Xalq artisti, görkəmli kinoaktyor və rejissor Şahmar Ələkbərovun (1943-1992) 80 illik yubiley gecəsi...

Nizami Kino Mərkəzində belə sıxlığı çoxdan görmürdüm. Parter, lojalar, yuxarı zal – qısacası, iynə atsan yerə düşməzdi. Onlarla insan da ayaq üstə. Foyedəki böyük lövhənin, monitordakı şəkli ilə dolan boş səhnə saysız gül dəstələrinə qərq olmuşdu.

Şəkildən boylanan məhrəm, doğma baxışların – qapqara qıyıq gözlərin, təbəssümünü bəyan edən cizgilərin, təpədən-dırnağa ləyaqət yağan duruşun işığına kimlər gəlməmişdi. Azərbaycan mədəniyyəti və incəsənətinin tanınan və sevilən simaları Şahmar haqqında danışmaq, yaxud danışılanları dinləmək üçün səf tutmuşdular.

Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyi və Dövlət Film Fondunun təşkilatçılığı ilə sentyabrın 23-də gerçəkləşən yubiley tədbirindən öncə bir qrup kino xadimi sənətkarın ailə üzvləri ilə birgə II Fəxri xiyabanda Şahmar Ələkbərovun məzarını ziyarət etmişdi.

Səmimiyyət və sevgi dolu yubiley gecəsini, səbəbkarsız keçən növbəti kövrək xatirə ladlı tədbiri giriş sözü ilə Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açdı. Torpaqlarımızın azadlığı, ölkəmizin suverenliyi uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Cəmil Quliyev qısa, ancaq dolğun sənətkar ömrünə nəzər saldı. Həyatının ən çətin anlarında hər zaman Şahmar Ələkbərovun dəstəyini hiss etdiyini, onun istedadı və ən əsası insanlığı barədə danışdı.

Tədbir boyu hər kövrək xatirəsini Şahmar əmi xitabı ilə başlayıb-bitirən tədbirin aparıcısı, Əməkdar incəsənət xadimi Elxan Cəfərovun özəl təqdimat və keçidlərində zaman-zaman yolu Ş.Ələkbərovla kəsişən sənətkarların parlaq, Şahmarlı yaddaş dəftərçələri vərəqləndi.

Məsələn, Xalq artistləri Şəfiqə Məmmədova, Vaqif Mustafayev, Tariyel Qasımov, Əbdül Mahmudov, Həmidə Ömərova, Fəxrəddin Manafov, Əməkdar artist Loğman Kərimov, Əməkdar incəsənət xadimi Ayaz Salayev bizə bir sənətkar ömrünün, bütün bunlardan öncə, bir ləyaqətli kişi həyatının ayrı-ayrı anlarından bəhs etdilər. Beləcə, biz onun gah qayğısız uşaqlığına, gah parlaq gəncliyinə, gah da dolğun yaradıcılıq yoluna səyahət edə bildik.

Hələ illər əvvəl verdiyi müsahibəsində “Aktyor üçün bütün rolları əzizdir. Çünki canıyanan, qanıynan, bütün beyniynən yaradır. Ona görə ki, hər bir rolda



– kiçiyində də, böyüyündə də həyatının bir hissəsini qurban edir. Əgər tam özünü rola həsr etməsən, onu özündə hiss eləməsən, onun istək və arzuları ilə yaşamasan, deməli, o rolu tamaşaçı qəbul eləməyəcək və yaxşısı budur o rolu oynama” deyən aktyorun səsinin hərarəti zala yayıldıqca alqış gurultusu qopdu. Çünki o, məhz dediyi kimi – lap sözünün ağası aktyor idi və istər çəkildiyi, istərsə də çəkdiyi filmlərə ruh və vücud olaraq bütünlükdə özünü fəda etmişdi...

Sözsüz ki, çıxışların emosional gücünü artıran, səhnəyə çıxan hər kəsi başqa bir yönə dartıb aparan sehr və güc yenə Şahmarın özü idi: tələbəlikdən başlayan, lakin qısa müddət davam edən teatr aktyorluğunun fotoyaddaşı, ağ-qara kino kadrları və milyon səsdən seçilən avazındakı xatirələri... İstər çəkildiyi, istərsə də çəkdiyi filmlərdən epizodlar böyük monitorda hərəkətə gəldikcə, insan zəkası zaman maşınına meydan oxuyurmuş kimi hər kəsin üzündə Şahmar Ələkbərovla ünsiyyətdəymiş kimi sevinc və həyəcan qarışıq bir işıltı yaranırdı.

Tədbir boyu özümə bu sualı verdim: Şahmar cəmi 49 il yaşadı. Amma bu müddətdə yaratdığı obrazlarla, çəkdiyi filmlərlə adını əbədi olaraq kino tariximizə yaza bildi. Özü də rola-zada girmədən. Çox sadə və təbii, lap özü kimi. Yaxşı, bəs bunun sirri nədə idi? Heç cavab da özünü çox gözlətmədi: o, xalqın içindən çıxıb, onun dilində danışmağı bacaran sadə insan idi...

Xatirə gecəsində Xalq artisti Mənsum İbrahimovun və Əməkdar artist Ceyla Seyidovanın ifaları ovqatın musiqili ifadəsində təsirli idi.

O sənət soraqlı gecə ilə bağlı bir etirafımı demək istəyirəm: xatirələri dinlədikcə bilmədim onun teatrdan getməsinə üzülüm, yoxsa məhdud sayda tamaşaçının görəcəyi səhnədən qopub, böyük ekrana gəlməsinə sevinim. Hərçənd o, şübhəsiz ki, milli teatr səhnəmizdə də öz bənzərsiz imzasını qoyacaqdı.



Təsadüfi deyil ki, Azərbaycan Teatr İnstitutunun (indiki ADMİU) Aktyorluq fakültəsində Rza Təhmasibin kursunda təhsil almışdı. Hələ üçüncü kursda oxuyarkən Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət olunmuş bir neçə tamaşada uğurla çıxış etmişdi. Amma teatrda qalmamışdı. Səbəbi də naməlum...

***




Böyük sənətkar Adil İsgəndərov onu da kinostudiyanın nəzdində yaratdığı “kino aktyorluğu” studiyasına dəvət edir. Şahmar beləcə, “Azərbaycanfilm” kinostudiyasında aktyor və rejissor kimi fəaliyyətə başlayır və ömrünün sonunadək kinoya sadiq qalır. Bütün yaradıcılığı boyu dublyajda da işləyir. Amma kino, bu unikal sənət sahəsi onu bütünlükdə ağuşuna alır. Şahmar Ələkbərovun yaradıcılıq bioqrafiyasında elə filmlər var ki, onlar milli-mənəvi dəyərlərimizin, ailə modelimizin, azərbaycanlı kişi obrazının ən qiymətli nümunələridir. Bunun səbəbi isə, sözsüz ki, aktyorun sadə, Vətənin hər bir bucağında eyni cür qəbul olunan və sevilən keyfiyyətləri ekrana daşıması, şəxsi nümunəsində olduğu kimi təqdimatı idi. Bəli-bəli, şəxsi nümunəsində...

Ümumiyyətlə, 49 illik ömrün 20 ilə sığan yaradıcılıq dövründə Fərrux ilə “Dağlarda döyüş”dən başlamış yol Qəzənfər (“Yeddi oğul istərəm”), Məzahir (“Mən ki gözəl deyildim”), Oğul (“İntizar”), İman (“Axırıncı aşırım”), İbrahim (“Qanlı zəmi”), Arif (“Həyat bizi sınayır”), Azad (“Bakıda küləklər əsir”), Qatır Məmməd (“Qatır Məmməd”), Feyzi (“Firəngiz”), Gündüz Kərimli (“Arxadan vurulan zərbə”), Cavidan (“Babək”), Tahir (“Gözlə məni”), İbrahim (“Atları yəhərləyin”) və s. ilə fərqli-fərqli cizgi və xarakterlərdəki insan taleləri yaratdı.

Amansız xəstəliklə çarpışdığı ağır illərdə də kinodan qopa bilməyən Şahmar özünü rejissor kimi sınamaq istədi. Buna yaradıcılıq arzularının, sonsuz istedad və biliyin qalaqlanmış ehtiyatının xərclənməsi arzusu da demək olar. Beləcə, “İmtahan”, “Qəzəlxan” və “Sahilsiz gecə” kimi tam fərqli üslub və ideyalı ekran əsərləri ortaya çıxdı.

Məncə, elə yazını da onun “Qəzəlxan” filmi ilə bağlı nadir səs yazısından qəzet səhifəsinə köçürməklə bitirsək, yaxşıdır. Çünki zamanında məhz bu filmə görə də yerli-yersiz söz-sov olmuş, o isə...

“Çox uzun-uzadı müzakirə olundu bu ssenari. Biz belə qaydalara öyrəşmişik ki, ssenari yazılar, hər bir hadisənin süjeti olar, hadisələr də müəyyən bir süjet ətrafında qurular. Amma bu ssenaridə – bəlkə də bu mənim naşılığımdan irəli gəlir – aydın bir süjet xətti yoxdur. Bu, mozaika üsulunda yazılmış ssenaridir. Yəni Vahid ovqatını, Vahidin ruhunu yaratmaq üçün ayrı-ayrı, əlaqəsiz rənglərin mozaikasını yaratmağa çalışdım. Məsələ burasındadır ki, bu ssenari Loğmana (Loğman Kərimov – red.) görə yazılıb. Loğman olmasaydı, heç bu ssenari də olmazdı. Onu görəndən sonra Vahidi gördüm və düşündüm ki, bu aktyor mütləq gərək Vahidi oynasın. Çəkiliş meydançasında olan hər kəs Loğmanın hərəkətlərini Vahid kimi qəbul edirdi. Filmdəki toyxana səhnəsinin çəkilişi üçün Vahidin kəndinə – Masazıra getdik. Onun yerlilərini də kütləvi səhnədə iştiraka dəvət etdik. Çəkiliş başladı və Loğman qrimdə içəri girdi. Ağarza adlı yaşlı kişi öz ləhcəsi ilə “Ala bunu hardan tapmısan? Lap Əliağadur ki” dedi”...

**Həmidə Nizamiqızı**

# “Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (64)

### 1996-cı il 23 iyul

Prezident Heydər Əliyev dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət komissiyasının növbəti iclasında çıxış edib.

*“...Füzulinin 500 illiyi ilə əlaqədar 1994-cü ilin martında yaradılmış yubiley komissiyasının fəaliyyəti haqqında Elçin Əfəndiyev (Baş nazirin müavini – red.) geniş məlumat verdi. Bir daha qeyd etmək istəyirəm ki, çox işlər görülübdür...*

*Təklif irəli sürüldü ki, yubileyin zirvə mərasimini də keçirək. Eyni zamanda bir sıra fikirlər səsləndi...*

*...İstanbulda Balasanyanın “Leyli və Məcnun” baletinin tamaşaya qoyulması, şübhəsiz ki, təəccüb doğurur. Məlumdur, vaxtilə Balasanyan “Leyli və Məcnun” baletini yazıb. Bu, Böyük Teatrda da tamaşaya qoyulub. “Leyli və Məcnun” mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də “Leyli və Məcnun” yazıb. İslam aləminin tarixində “Leyli və Məcnun” mövzusunda dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən ilk opera yazılıbdır... Biz bununla fəxr edirik...*

*Ancaq bizim sonrakı bəstəkarlarımız gərək Üzeyir Hacıbəyovun yolu ilə gedəydilər. “Leyli və Məcnun” mövzusunda bir balet yazaydılar. Qara Qarayevin “Leyli və Məcnun” simfonik əsəri çox dəyərli bir əsərdir... Arif Məlikov “Məhəbbət əfsanəsi” adlı çox gözəl bir əsər yaradıb. Ancaq gərək bir başqa bəstəkarımız da “Leyli və Məcnun” baleti yaradaydı...*

*Mən hesab etmirəm ki, xalqımızın, bəstəkarlarımızın yaradıcılıq potensialı tükənibdir, yox. Bu gün də, sabah da əsərlər yaranacaq... Ancaq İstanbulda Balasanyanın əsərlərinin tamaşaya qoyulması, şübhəsiz ki, təəccübləndirici bir məlumatdır. Güman edirəm ki, Polad Bülbüloğlu TÜRKSOY-un rəhbəri və mədəniyyət naziri kimi gərək bu məsələni biləydi və türk qardaşlarımıza izah edəydi ki, belə ola bilməz...*

*Füzulinin 500 illiyi ilə əlaqədar 94-cü, 95-ci və 96-cı illərdə keçirilən tədbirlər sadəcə olaraq bir yubileylə bağlı mərasimlər deyildi, onlar Füzuli yaradıcılığının geniş bir çərçivədə təbliğ olunmasına şərait yaradırdı... Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır... Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.*

*Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında xidmətlərinə verilən qiymətdir – bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir... Hesab edirəm ki, biz cari ildə bu yubileyin zirvə tədbirlərini keçirməliyik...*

*Anar (Yazıçılar Birliyinin sədri – red.) təklif verdi ki, bizdə türkdilli ölkələrin yazıçılarının qurultayı keçirilsin. Mən bu təklifi qəbul edirəm. Belə bir qurultayı Azərbaycanda keçirmək lazımdır... Onu Füzulinin yubileyi ilə eyni vaxta salmaq məqsədəuyğundur...”.*

### 1996-cı il 16 avqust

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə şair Qabil İmamverdiyevi “Şöhrət” ordeni ilə təltif edib. Şairə 70 illik yubileyi münasibətilə təbrik məktubu göndərib.

### 1996-cı il 28 avqust

Xalq rəssamları Elmira Şahtaxtinskayanı və Oqtay Sadıqzadəni qəbul edib.

### 1996-cı il 30 avqust

Respublika Sarayında görkəmli şair Əliağa Vahidin 100 illik yubiley gecəsi başa çatdıqdan sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxış edib.

*“...Hesab edirəm ki, bu yubiley gecəsi Vahidə layiqdir. Buradakı çıxışlarda siz dediniz ki, keçmişdə Vahidə lazımi qiymət verilməyib. Tarixdə belə hallar çox olubdur ki, böyük insanlar zaman, vaxt keçdikdən sonra daha düzgün qiymətləndiriliblər. İndiyədək Əliağa Vahidin heç bir yubileyi keçirilməmişdir. Bu il, bu günlər keçirilən tədbirlər, xüsusən bu gecənin bu qədər təntənəli, çox məzmunlu olması, mən hesab edirəm, onun indiyədək yubileylərinin keçirilməməsini əvəz etdi.*

*Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim həddindən çox canlandı, həyəcanlandım. Ədəbiyyatımızın, şeirimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə bərabər böyük iftixar hissi keçirdim.*

*Vahid böyük bir xəzinədir. Bu gün siz bu xəzinənin ola bilər, bir neçə laylarını millətimizə göstərdiniz. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdır...*

*Mən bu gün sizi dinləyərkən özüm üçün bir nəticə çıxardım ki, Vahid nə qədər çətin həyat tərzi keçiribsə, ağır yaşayıbsa, ona nə qədər diqqətsizlik olubsa, qayğı göstərilməyibsə də, o, çox nikbin adam olubdur. Vahid xalqımızın, respublikamızın xoşbəxt gələcəyini nə qədər gözəl tərənnüm edib...*

*Mən foyedə rəssam Adil Rüstəmovun xalqımızın sevimli sənətkarına həsr olunmuş qrafika əsərləri sərgisi ilə tanış olanda da dedim, Vahidin əsərləri başdan-başa fəlsəfədir. Sizin oxuduğunuz o şeirlər, səslənən musiqi də fəlsəfədir. Bax, rəssam da bunu belə dərk edib. Onun çəkdiyi əsərlər çox gözəl rəsm əsərləridir və orada da fəlsəfə var...*

*Mən gecədə iştirak edən meyxanaçıların çıxışlarını yüksək qiymətləndirirəm. Meyxana xalqımızın, millətimizin folklorunun çox gözəl janrlarından biridir. Amma bəzən nədənsə meyxanaya xor baxırdılar. Halbuki meyxana xalqın özünəməxsus bir folklorudur...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# IV “Sevil” Beynəlxalq Qadın Sənədli Film Festivalı başa çatıb

Bakı, Şəki və Lənkəran şəhərlərində 15-22 sentyabr tarixlərində keçirilən IV “Sevil” Beynəlxalq Qadın Sənədli Film Festivalına yekun vurulub.

Sentyabrın 22-də “Landmark Ratunda hall”da festivalın qalibləri elan edilib.

“Yerli qısametrajlı sənədli film” nominasiyasında rejissor Nəzrin Ağamalıyevanın “Hədis” filmi qalib adını qazanıb. Bu nominasiyada münsiflərin xüsusi mükafatına Aynur Elgünəşin “Çinar ağacının kölgəsində” filmi layiq görülüb.

“Beynəlxalq qısametrajlı sənədli film” nominasiyasında Slovakiyadan Sona Notovanın “Qadının doğuluşu” filmi qalib olub. Bu nominasiyada xüsusi mükafatı isə polşalı rejissor Olga Hajnoszun “Bu elə bir sevgidir ki...” filmi qazanıb.

“Tammetrajlı sənədli film” nominasiyasında gürcü Anna Dziapşipanın “Sərhəd boyunca avtoportret” filmi birinci olub. Eyni nominasiyada münsiflərin xüsusi mükafatı Leyla Cəfərovanın “Bəlkələrlə yaşayırıq: müharibə sonrası itkin düşmüş şəxslərin axtarışında” filminə verilib.

Festival çərçivəsində gerçəkləşən “Dok Atelye” vorkşopunda isə 8 layihə arasından Ceylan Əmirəliyeva və Levi Angelin “Yaxşı səhərlər” və Gülarə İsmayılova ilə Səhər Cahanın “Süpürgə boğan” layihələri qalib olub.

**Lalə**

# Tanınmış kino xadimi Əsəd Əsədov dünyasını dəyişib



Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, tanınmış kino xadimi, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü Əsəd Əsədov sentyabrın 23-də, 76 yaşında dünyasını dəyişib.

Əsəd Fərrux oğlu Əsədov 1947-ci il martın 1-də Bakıda anadan olub. 1970-ci ildə Leninqrad (Sankt-Peterburq) Kino Mühəndisləri İnstitutunu bitirib. 100-dən çox bədii və sənədli filmin, “Mozalan” kinojurnalı süjetlərinin səs rejissorudur.

İlk çalışdığı bədii ekran əsəri rejissor Tofiq İsmayılovun yazıçı İlyas Əfəndiyevin “Körpüsalanlar” romanı əsasında ekranlaşdırdığı “Çarvadarların izi ilə” (1974) filmi olub.

Rejissor Vaqif Mustafayevin “Yaramaz” filmindəki (1988) işinə görə (səs operatoru) yaradıcı heyətlə birlikdə respublikanın Dövlət mükafatı ilə təltif olunub.

Əsəd Əsədov Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə 2000-ci ildə “Əməkdar mədəniyyət işçisi” fəxri adına, 2023-cü ilin may ayında isə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdü.

***

Sənətkar 2022-ci ildə 75 yaşı ərəfəsində “Mədəniyyət” qəzetinə müsahibəsində kinoya gəlişindən, keçdiyi sənət yolundan söhbət açmışdı.

“...Niyə məhz səs rejissoru peşəsini seçdim? Niyəsini heç özüm də bilmirəm. 1965-ci ildə sənəd vermək üçün Neft və Kimya İnstitutuna gəldim. Orda Leninqrad Kino Mühəndisləri İnstitutu üçün sənəd qəbulu da var idi. Respublika üzrə üç nəfər həmin instituta qəbul ola bilərdi. Sözün düzü, institutun adı xoşuma gəldi. Ərizə yazdım, imtahanlarımı verib qəbul olundum...

Səs rejissorluğu filmdə olduqca vacib sahədir. Bu sahənin özünəməxsus maraqlı tərəfləri var. Montaj prosesi bitdikdən sonra filmin səsləndirilməsi başlayır. Filmdə çəkilən aktyorların səsini hansı aktyorun səsləndirəcəyini ölçüb-biçirik, qərar veririk. Kinoda birinci adam filmin quruluşçu rejissorudur. Mən həmişə rejissorlarla fikir mübadiləsi aparmışam, istəkləri ilə də qarşılıqlı anlaşmamız olub. Filmlərdə təkcə səs yox, operator, montaj işi, ümumiyyətlə, hamısı önəmlidir. Səsləndirmə prosesi ən axırda gedir. Həmişə çalışmışıq ki, filmdə səslənən həm musiqi, həm kənar səslər, həm də aktyorların səsi maraqlı olsun. Bunun üçün də çalışqanlıqla yanaşı, böyük səbir tələb olunur.

...İndi filmlərin sonunda səs rejissoru yazırlar, amma əvvəllər səs operatoru yazırdılar. Bir çox filmlərdə adım səs operatoru kimi gedib, buna da öyrəşmişəm. İşə gələndə isə, mənim üçün bunların heç bir fərqi yoxdur.

...Həyatım və yaradıcılığım həmişə bir-biri ilə bağlı olub. İndi, övladlarımla, nəvələrimlə nəfəs alıram. Keçmişimə də nəzər salanda fəxr edirəm ki, belə maraqlı, işgüzar həyat yaşamışam. 75 yaşa çatmışam, amma bilmirəm buna sevinim, yoxsa kədərlənim. Çünki 75 yaş sona yaxın bir həyatdır...”.

Allah rəhmət eləsin.

№71 (2040)
27 sentyabr 2023
www.medeniyyet.az

# Mətbuat salnaməmizdə əbədi yaşamaq haqqı...



Sentyabrın 25-i ustad jurnalist, yazıçı, uzun illər "Mədəniyyət" qəzeti redaksiyasında çalışmış Tahir Abbaslının (1948–2021) anadan olmasının 75-ci ildönümü idi.

Ömür vəfa etsəydi, kollektiv olaraq bu yubileyi mütləq qeyd edəcəkdik. Sadiq oxucuları hələ neçə-neçə sanballı publisistika örnəyini oxuyacaqdı. Axı o, mətbuat salnaməmizdə əbədi yaşamaq haqqı olan yazılar qələmə alırdı. Mövzuları rəngarəng, deyim-duyumu bənzərsiz, həm də milli ruhla süslü...

Redaksiyamız istedadlı həmkarımızın vəfatının birinci ildönümü münasibətilə onun vaxtilə "Mədəniyyət" qəzetində dərc olunmuş yazılarının bir qisminin yer aldığı "Publisistik taktlar" (2022) adlı kitabı nəşr etdirdi. Kitabda "Musiqidə obrazlaşanlar", "Söz ömrü qazananlar", "Səhnə və ekran fədakarları", "Rənglərin dünyasından" və "Tarixi yaddaş" adlı bölmələr üzrə müəllifin 55 məqaləsi toplanıb.

75 illiyi münasibətilə hörmətli iş yoldaşımızı rəhmətlə yada salır, onun böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar haqqında 2018-ci ilin təxminən bu vədələrində qələmə aldığı yazısını yenidən oxucularımıza təqdim edirik.



# Otuz yaşlı GÖZYAŞI...

## Ulu Şəhriyarımızın 30 illik anımı və təkrarsız Məmməd Arazımızın "Şəhriyar gəlmədi" yanımı üstə köklənmiş köşə

Mətnə – bu böyük Vətən nəğməkarının "Heydərbabaya salam"ında ümummilli vəsiyyət (və bu yazı janrına ehtiva) kimi səslənən son bənddən ilk misra ilə başlayıram:

### "Heydərbaba, alçaqların köşk olsun..."

Əlli bir il öncə "Şahlıq" üsul-idarəli Güneyimiz M.P.Vaqifin 250 illiyinə rəsmən dəvətli bu şairin "Rejim" üsul-idarəli Quzeyimizə gəlişini (guya "poçtalyonun dəvətnaməni "səhvən" başqa bir "Məhəmmədhüseyn"ə çatdırması" bəhanəsilə) əngəllədi. Və dövrün bu milli-mənəvi "bomba" hadisəsinə ovaxtadək həmin o güneylimizin yazışdığı quzeyli qocalardan (xüsusən, "Eşq əhlisən, məni yaxşı qanarsan, Gözlər yağış yağdırmasa, yanarsan" kəlmələrilə xitab etdiyi S.Rüstəmdən) qulaq verən olmadı. Otuz dörd yaşlı Məmməd Araz isə yazdı:

*Ümidlər yollara sərili qaldı.*
*Güllər güllüklərdə dərili qaldı –*
*Şəhriyar gəlmədi...*

Bu Allahsız GƏLMƏZLİKdən 19 il sonranın bir yaz günü böyük alim Xudu Məmmədov və dayım – (Ağdamda "Bala Marks" adlandırılan) Zeynal Məmmədovla Bakıdan Füzuli rayonunun Əhmədalılar kəndinə – kiçik qardaşımın toy məclisinə yollanmalı olduq. "Şıx" çimərliyini ötər-ötməz, dayım sürücüsünə dedi: "O kaseti qoy, Güney Dədəmizin səsinə-sözünə qulaq asaq. Ancaq tüstülənəcəyimiz məqamlarda saxla ki, özümüzü söndürə bilək...".

Sürücü düyməni bascaq, salona ilahi bir səs yayıldı:

*Heydərbaba, ildırımlar şaxanda,*
*Sellər, sular şaqqıldaşıb axanda...*

Hal əhli sürücü 3-cü bənddə ("Uşaqların bir dəstə gül bağlasın, Yel gələndə, ver gətirsin bu yana, Bəlkə mənim yatmış bəxtim oyana") kaseti dayandırdı. Ancaq o çağların (Bəxtiyar Vahabzadə, Nurəddin Rza, Şahmar Əkbərzadə də daxil) məşhur "beşlik" üzvlərindən bu ikilik donmuş göl kimi susurdu. Mənsə vəziyyətdən "süi-istifadə" edib, M.Arazın həmin şeirindən növbəti misralara başladım:

*Şəhriyar gəlmədi!*
*Gəlsəydi...*
*Təbrik yağdırardı məktəblər ona –*
*Ana dilində.*
*Təbrik yağdırardı məktublar ona –*
*Ana dilində...*
*Əslində, şairə sədd qoyan naşı*
*Çıxır bu dünyanın özünə qarşı...*

Sürücü düyməyə toxunur. Sözü göylərə bülənd Dağ şair ömrün keçməsi, əsl aşiqlərin vüsala varmaması, gözəllərin necolması, döngə-dönümlərin, itkinlik-ayrılıq-ölümlərin var olması kimi əbədi qaçılmazlıqlardan kəlam-abidələr yaradıb, "Ay özümü o əzdirən günlərim, Ağac minib, at gəzdirən günlərim!..." kimi bənzərsiz etnoqrafik tabloya çatanda, Xudu müəllim astaca bir səslə dilləndi: "Belə şairlər Vətən içində ayrıca bir vətəndirlər..."

Bu dəm mən M.Araz Şəhriyarından misralamağa başladım:

*Alqışlar qollarda kirindi artıq,*
*Ümidlər yollardan küründü artıq...*
*Qayıtdı geriyə toylar, yallılar,*
*Qayıtdı evlərə fərşlər, xalılar*
*Şəhriyar gəlmədi!...*

Sürücü düyməyə toxunur. Biri-birindən şimşək bəndlər səsləndikcə Zeynal Məmmədov (nəzərlərini Arazboyu tikanlı məftillərdən ayırmadan): "Bu misraların bu məftilləri qıracağı günə az

*Bir zaman demişdim Səttərxana da:*
*Düşmənin hər vədi gülə bürünmüş,*
*İşvəli, qəmzəli mələyə dönmüş...*
*Qoyub arxayınca qılıncı qına,*
*Getmə bu vədələr qonaqlığına...*

Sürücü bir xeyli sükutdan sonra düyməyə toxunur:

*Heydərbaba, alçaqların köşk olsun,*
*Bizdən sora qalanlara eşq olsun,*
*Keçmişlərim gələnlərə məşq olsun,*
*Evladımız məzhəbini danmasın,*
*Hər içiboş sözlərə aldanmasın!...*

Kaset dayandırılır, ancaq arxadan səs gəlmir. Sürücü tərəfdən ("təbiət seyri" mahnısıyla) göz gəzdirib, Xudu müəllimin yanaqlarında yaş görürəm. Dayımsa, millilik dərd-ələminə hamımızdan yaxşı bələd olduğu bu dostunun cari qəm yükünü azaltmaqçün səsindəki qəhəri boğmağa çalışaraq deyir: "Həə, tez-tez muzeylərdən yazan bacoğlu, bir fotoaparatın da qalıb!..." kimi qaçaq-qıvraq kəlmələr işlədir.

Xudu müəllimsə susur, susur, susur. Ta ovaxtacan ki;

*Heydərbaba, göylər bütün dumandı,*
*Günlərimiz bir-birindən yamandı,*
*Bir-birizdən ayrılmayın, amandı,*
*Yaxşılığı əlimizdən alıblar,*
*Yaxşı bizi yaman günə salıblar!... –*

bəndi səslənir və güzgüdən onun sözlü olduğunu görən sürücü kaseti dayandırır. "Ay Zeynal müəllim, doğrudanmı "yaxşı bizi"?! Biz yaxşıyıqsa, bu yaman məftillər niyə burdadı?...".

Bu an mən müdaxilə edirəm:

*Şəhriyar gəlmədi...*
*O tayda bir təpə torpaq dikəldi:*
*- Mən daşlar altında bir tarix daşam,*
*Min dəfə daşlara dəyən bir başam,*
*Yatıram bir qarış torpaq xanada,*
*yox ki, bu müqəddəs canlı "eksponat"ı da əbədiləşdirib, haçansa yazasan...".*

O vaxt o göz yaşları ilə o sözləri M.Araz misralarıyla cavablandıra bildim:

*Siz ey bu dünyanın söz dərgiləri,*
*Dünyanın qəzetçi xəbərçiləri!*
*Bir ölkə düzəldin: yalandan yalan!*
*Yazın nə gözəldir: yalandan yalan!*
*Həsrətlər qoşulub dartır qatarı,*
*Qardaşı qardaşa qonaq aparır.*
*Şəhriyar "yollanır" Azərbaycana,*
*Yol hanı, yol hanı Azərbaycana?!.*

O vaxt o poema və o gözyaşı müəllifləri o 300 kilometrlik yolu bizə 3-4 dəqiqəyə qət etdirdi. Ancaq onların bir-birindən bir ay fərqlə vəfat etmə sehrini bu otuz ildə sinirib qurtara bilmirəm...

**Tahir Abbaslı**
**("Mədəniyyət" qəzeti, 21.09.2018)**

Azərbaycan teatrı – 150

# Kinomuzdan keçən teatr

## Və yaxud indi teatr vaxtıdırmı?

– Bütöy dünyanı gəzəsən, səndən qəribəsini tapmazsan. Ə camaat nə hayda, sən nə hayda. Gündə qulağımızın dibində min güllə atılır, heç bilmirik sabaha sağ çıxacıyıq, ya yox. Sən də hara gedirsən bu mütrüb paltarlarını özüynən daşıyırsan. Ə qoxmursan, sabah Şellinin içərisində səni hoydu-hoyduya salıb biabır edələr? Ə teatr vaxtıdı indi?

– Sən belə şeyləri qanmazsan, yoldaş Mirpaşa. Sənin tüfəngindən çox indi kəndə mədəniyyət lazımdır. Teatr mədəniyyətin birinci pilləsidir.

– Ay bərəkallah. Elə Gəray bəy də oturub qan çanağında iki əlini dirəyib alnına ki, hanı o kor Mədətin oğlu Uzundraz Qasım, gəlsin Peykanlıya mədəniyyət yaysın, yoxsa bağrım çatlar...

Ötən əsrin 20-ci illərinin əvvəlinin qanlı-qadalı olaylarından bəhs edən "Yeddi oğul istərəm" filmindəki bu epizod, yəqin ki, diqqətli tamaşaçıların yaxşı yadındadır. Yüz il sonra bu sənətə münasibətdə fədakarlıq, sənətin fədaisi olmaq eynilə aktualdır...

***

Bu yazıda Azərbaycan peşəkar milli teatrının təşəkkülünün 150-ci ildönümündə milli kinematoqrafiyamızda teatr məsələsinə nəzər salmağa çalışacağıq. Baxıb gördüklərimizlə qısa araşdırmanı üst-üstə toplayanda siyahı o qədər də uzun olmadı.

Hərçənd sənədli və sənədli-bədii qısametrajlı portret filmlərimiz, ümumən teatr sənətinin təmsilçiləri ilə bağlı ekran işlərimiz çoxdur. Amma sırf bədii kinoda teatr mövzulu nümunələr azdır. Odur ki, səhnə, teatr elementləri olan filmləri də gözünə qatmaqla müəyyən təsəvvür yaratmağa çalışdıq.

Bunlardan biri 1970-ci ildə Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında və Azərbaycanda sovetləşmənin 50-ci ilinə ithaf olaraq çəkilən "Yeddi oğul istərəm" filmidir. Tofiq Tağızadənin quruluşçu rejissor, Yusif Səmədoğlunun isə ssenari müəllifi olduğu filmdə Novruz bayramının meydan teatrı elementləri ilə yanaşı, milli teatr məsələsi də var. Mirpaşanın (Elçin Məmmədov) Qasımla (Əbdül Mahmudbəyov) dialoqu teatr yaratmaq, xalqı bu yolla maarifləndirmək istəyən bir gəncin işıqlı arzularının ifadəsidir.

Filmdəki yeddi oğuldan birinin aktyor, fədai, həvəskar səhnə aşiqi seçilməsi təsadüfi deyildi. Mirpaşa ilə əks qütbün insanı olan, onunla heç vaxt yola getməyən, öləndə isə onun yanında basdırılmasını istəyən Qasım ümumən maraqlı bir obrazdır. Ən böyük arzusu səhnədə "Ölülər" pyesindəki Kefli İsgəndəri oynamaqdır, eyni zamanda teatrın, sənətin kəndlərdə yayılması istəyi ilə yaşayır. Onun "Mədəniyyət, bax gördüyün bu qara camaata lazımdır" sözləri bütün zamanlar üçün aktual olan şüar kimi səslənir.

***

Teatr, qadınların səhnəyə gəlişindəki məhrumiyyətlər, xurafatın yaratdığı əngəllər "Qanun naminə" filmində (quruluşçu rejissor Muxtar Dadaşov) gözə çarpır. Gözəl, cazibədar, istedadlı Balış (Janna Smelyanskaya) teatra vurğundur və bu böyük arzusunun arxasınca getməkdən qorxmur. Amma kənddəki bir çox həmcinslərinin tənə ünvanıdır. Onu görən kimi "Bir bax-bir bax, üzündə həya-abır qalmayıb. Abrımız töküldü" kimi atmacalar atırlar. Balış bunların hamısını eşidir, diqqət yetirmir, kluba, tamaşanın məşqinə tələsir... Amma irəlidə onu acı son (qısqanc ərinin əlindən ölüm) gözləyir...

***

Müqayisə aparsaq, bütünlükdə teatr və onun emosional təsir gücü haqqında ən mükəmməl ekran işi, sözsüz ki, "Dantenin yubileyi"dir. Yazıçı Anarın öz ssenarisi əsasında rejissor Gülbəniz Əzimzadə ilə birgə quruluş verdiyi film (1978) teatrı müqəddəs sayan, ona ömrünü həsr edən aktyorun timsalında ümumən sənətə məhəbbət haqqında poetik etirafdır. Qocaman aktyor Kəbirlinski (Həsənağa Turabov) tamaşalarda ancaq epizodik rollar oynayır. İstedadı olmasa da, teatra qəlbən bağlı adamdır. Həmkarları daim onunla zarafatlaşır, bəzən də sataşırlar.

Uzun illər səhnədə olmasına rəğmən heç nə qazanmayıb. Ailəsində də, işində də uğursuz sayıla bilər. Amma bütün bunlara inad o, əslində, teatra lazım olan, onu qəlbən sevən və heç vaxt səhnəyə xəyanət etməyən aktyordur. Filmi müəlliflərin aktyorluq sənətinə olan ehtiramlarının ekran ifadəsi də saymaq olar.

Filmdə yer alan əhəmiyyətli mövzulardan biri də teatr mühitinin daim aktual, həll olunmamış problemlərinə işıq salınmasıdır. Gənc tənqidçi Yalçın qoca aktyor Kəbirlinsikinin timsalında daim cavabı axtarılan suallar verir.





Əsas kadrları iki teatrda – Akademik Milli Dram və Dövlət Kukla teatrlarının binalarında çəkilən filmin diqqətçəkən cəhətlərindən biri də dövrün tanınmış mədəniyyət simalarının epizodlarda rol almasıdır. Bu kadrlarda yazıçılar Anar və Elçin, rejissorlar Bəxtiyar Xanızadə, Vaqif İbrahimoğlu, Eldar Quliyev, bəstəkar Emin Sabitoğlu, rəssam Toğrul Nərimanbəyov, eləcə də digər mədəniyyət xadimlərini görürük.

***

"Qorxma, mən səninləyəm!" (1981) filmi də teatrın, xüsusən səhnədə milli aktrisaların olmadığı və bu üzdən fədakar aktyorların qadın rollarını da oynadığı məhrumiyyət və qadağalarla dolu dövrün təsviri baxımından maraqlı nümunədir. Teatrda qadın rollarını oynayan Teymur (Polad Bülbüloğlu) sevdiyi qıza qovuşmaq, necə deyərlər, öz gücünü təsdiq etmək üçün də sənətin gücünə arxalanmalı olur. Sirk artisti, əslində, ona düşməni kimi təqdim olunan Rüstəm (Muxtarbəy Kantemirov) və onun dostu San Sanıçla (Lev Durov) birgə bütün maneələri dəf edə bilir.

Bu filmin janrını dəqiq təyin etmək çətindir. Burada musiqi də, gözəl mahnılar da var, sərgüzəştlər, gözlənilməz, qeyri-adi hadisələr də. Amma filmin ən maraqlı cəhəti dövrün qoçusundan ziyalısınadək sənətə olan münasibətin göstəricisidir.

***

Teatr və kino, küll halında sənətin insan psixologiyasına təsiri barədə fərqli baxış sərgiləyən rejissorlarımızdan biri də Xalq artisti Oqtay Mirqasımovdur. Özünün üç filmində – "Gümüşü furqon", "Ovsunçu" və "Günaydın, mələyim!"də ayrı-ayrı qəhrəmanların timsalında teatr, səhnə, yaradıcılıq və onun fərdlərin taleyinə təsirinə özünəməxsus baxışını sərgiləyir.

Məsələn, "Gümüşü furqon"da (1982) biz kövrək hisslər və saf duyğularla zəngin Mədinəni (Həmidə Ömərova) və onun taleyinə təsir edən gənc artisti görürük. Mədinəgilin kəndlərinə gümüşü sirk furqonunda gələn mehriban oğlan Rəsul (Məmməd Məmmədov) uğursuz taleli bu gənc qadına saf məhəbbət hissləri bəxş edir. Onun təmsilçisi olduğu sənət hisslərini büruzə verməkdə mükəmməl vasitəyə çevrilir.

Rejissorun sirk elemetlərindən istifadə ilə ekran həlli verdiyi "Ovsunçu" filmində (2002) ötən əsrin 20-ci illərdə Azərbaycanda sovet hakimiyyəti qurulması zamanı baş verən hadisələrdən, bu hadisələrin xalqımızın mənəviyyatına göstərdiyi təsirdən, totalitarizm təfəkkürünün yerli camaatın beyninə zorakılıqla yeridilməsindən danışılır. Filmdə sirk qrupundakı musiqiçilərdən birini (akkordeonçalan) rejissor özü oynayır.

"Günaydın, mələyim!" kinodramında (2008) bir qadın aktrisanın timsalında teatr məsələsi nəzərə çarpır. Sözsüz ki, müəyyən hadisələr fonunda. Filmdə çoxqatlı konflikt quran rejissor bununla cəmiyyətin aktual problemlərini əhatə etməyə çalışır. Əri müharibədə həlak olan və oğlu ilə tək qalan Mədinə (Ayan Mir-Qasım) aktrisadır. Mövcud şərtlər onu hər yerdə mübarizəyə məcbur edir. Rəsmi nikahı olmadığına görə sosial müavinət ala bilmir, bürokratik əngəllərə qarşı müqavimət göstərir. Bu kimi süni əngəllərlə çalışdığı teatrda da qarşılaşır. Rol bölgüsündən səhnəarxası dedi-qodularadək teatr intriqalarına, pərdəarxası məqamlara da qısa keçidlər vasitəsilə filmdə Mədinənin timsalında bir aktrisanın yaşantılarına da eyhamlar vurulur.

***

"Üzeyir ömrü" filmində (1981) dahi bəstəkar, professional musiqimizin banisi Üzeyir Hacıbəylinin həyat yolu fonunda milli teatrın formalaşması, opera sənətimizin yaranması və s. özünəməxsus yer tutur. Xalq yazıçısı Anarın ssenari və quruluş müəllifi olduğu film Üzeyir bəyin həyat yoluna bədii-publisistik baxış olmaqla yanaşı, həm də dövrün səhnə mənzərəsini verən qiymətli ekran işidir.

Anarın ssenarisi əsasında rejissoru Ramiz Həsənoğlunun çəkdiyi "Cavid ömrü" filmi də (2007) bu qəbildən dəyərli nümunə sayıla bilər. Hüseyn Cavidin həyatını və çəkdiyi məşəqqətləri ön planda təqdim edən filmdə mədəniyyət, sənət, teatr, ədəbiyyat və bu sayədə bəşəri xilasa çağırışlar var. Filmin əsas qayəsi xilasın yolu və onun həm də maariflənmə və mədəniyyətdən keçməsinin kütləvi dərkidir.

***

"Qəzəlxan" filmində (1991, ssenari müəllifi və rejissor Şahmar Ələkbərov) də teatr, səhnə mövzusuna toxunulub. Böyük qəzəlxan şair Əliağa Vahidin həyatı və yaradıcılığından bəhs edən filmdə ümumi süjet xətti yoxdur. Buna baxmayaraq, şairin həyatı xronoloji ardıcıllıqla izlənilir. Filmin maraqlı səhnələrindən biri də Leyli ilə (Nübar Novruzova) Əliağa Vahidin (Loğman Kərimov) münaqişəsidir. Aktyor truppası ilə rayona səfər edən Leylinin kolxoz sədri (Muxtar Maniyev) ilə münasibətinə Vahidin etirazı və aktrisanı daşqalaq etməsi filmdə təsirli səhnələrdəndir.

***

Bir sıra filmlərdə biz həm də teatrlaşdırılmış, daha doğrusu, kinematoqrafiyanın imkan verdiyi qədər teatr elementlərindən istifadəni görürük. Elə götürək "Bəyin oğurlanması" filmindəki Eldəniz Zeynalov, Yaşar Nuri, Ramiz Əzizbəyli və Şamil Süleymanovun iştirakı ilə çəkilən məşhur klub səhnəsini.

Bu məqam – yəni kinokadrda tamaşa elementi "Evlənmək istəyirəm", "Əhməd haradadır?", "Sevil" film-operası, "Onun bəlalı sevgisi", "Qayınana", "Dərviş Parisi partladır" (meydan tamaşası səhnəsi), "Çölçü" (kukla teatrı elementləri) kimi filmlərdə də nəzərə çarpır.

Xüsusilə sovet dövrü filmlərində bu qəbildən klub, konsert-tamaşa səhnələri xarakterik idi. Sözsüz ki, həmin filmlərdə ideoloji məqsəd, kinodan təbliğat vasitəsi kimi istifadə aydın idi. Bu mənada "Möcüzələr adası", "Bəxtiyar", "Əmək və qızılgül" filmlərini xüsusilə qeyd edə bilərik.

Müasir kinomuzdan 2011-ci ildə ekranlara çıxan və sırf baş rol ifaçısına (Xalq artisti Fuad Poladov) görə diqqəti cəlb edən "Aktrisa" filmini qeyd edə bilərik. Kriminal-dram janrında filmdə bir-birinin ardınca törədilmiş üç qətl hadisəsindən bəhs edilir. Qətlə yetirilən qadın Alesa Kaçer (Lalə Fətəliyeva) aktrisadır və film boyu biz onun oyun məharətini fərqli vəziyyətlərdə xatırlayırıq.

Nümunələr sırasında "Gecikmə" bədii-sənədli filmi (2017) də var. Filmin qəhrəmanı Ağdam teatrının aktrisası, ən böyük arzusu fəxri ad almaq olan Fəqumə Yusifovadır. Biz onunla ilk olaraq məişət həyatında tanış oluruq. Bu minvalla onun timsalında əyalətdə sənət ilə məşğul olmağın necə ağır bir iş olduğuna şahidlik edirik.

Rejissor İlqar Nəcəfin "Teatral həyat" filmi (2009) də maraqlı nümunələrdəndir. Filmdə hadisələr Sovet İttifaqı dağılandan sonrakı illərə təsadüf edir. Filmin qəhrəmanı əyalət teatrlarından birinin aktyorudur.

***

...Hamletin monoloqunu xatırlamaq kimi olmasın, amma teatrın məşhur seçim qarşısında qaldığı vaxtlardan bu yana bu sahə və onun təmsilçiləri ilə kino sənayesi arasında daim qəribə bir rəqabət olub. Hətta teatrın bir çox məsələlərdə kinoya uduzduğu deyilsə də, təbii və canlı sənət kimi teatr daim öz ənənəvi yerindədir. Deməli, bizə hər zaman teatr lazımdır...

**Həmidə Nizamiqızı**

# "Əgər obraz yoxdursa..."

## Xalq rəssamı Fuad Salayevlə sənət söhbəti

"Bilirsiniz, başqalarının eşidə bilmədiyini eşidən kəs – bəstəkar, başqalarının görə bilmədiyini görən kəs – rəssam olur. Yəni insanın sənət seçimini müəyyən edən əsas məqamlardan biridir bunlar…"

Sentyabrın 24-də 80 yaşını qeyd edən tanınmış heykəltaraş, Xalq rəssamı, professor, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü Fuad Salayev bu sözləri müsahibəmizdən əvvəl, emalatxana-mənzilindəki kiçik qalereyadakı əsərlərini göstərərkən demişdi. Düzü, bu fikir mənə bir qədər mübahisəli gəlsə də, dinməmişdim. Ağsaqqal sənətkarla söhbətimizin məcrası dəyişməsin deyə...

*– Fuad müəllim, sizinlə 80 illik yubileyiniz ərəfəsində görüşürük…*

– Vallah, heç bilmədim, bu səksən nə vaxt yetişdi (gülür)… Elə bil hər şey dünən-srağagün olmuşdu…

*– Deyirlər ki, pozitiv enerji bol olanda vaxtın necə keçdiyini hiss etmirsən…*

– Deməzdim ki, həyatım büsbütün pozitiv enerji içində keçib, – bu, mümkün deyil. Yaradıcı insanın həyatı bir növ ziqzaq kimidir: o, baş verənləri, üzləşdiyi hadisəni təkcə şüurla yox, həm də emosional qəbul edir. Əsas odur ki, ziqzaqın cızıqları çox itiuclu, dərin olmasın. Yaşa gəlincə, insanın fikirləri, planları həmişə yaşla üst-üstə düşmür. İnsan daim özünü ifadə etmək, ürəyindən keçənləri gerçəkləşdirməyə can atır. Bu, İlahinin bizə verdiyi böyük nemətdir.

*– İfadə etmək demişkən, çox zaman rəssamlıqla heykəltaraşlığı eyniləşdirirlər. Halbuki heykəltaraşın fikrini ifadə etmək vasitələri rəssama baxanda məhduddur. Ən azından rənglərə görə.*

– Heykəltaraş boyalarla işləməkdən məhrumdur. Amma heykəltaraşın əlində çox gözəl material var: gil! Əgər həyatın yaranışı barədə dini fərziyyəyə inansaq, Tanrı da Ədəmi gildən düzəldib. Düzdür, gillər fərqlidir, məsələn, bir rayonda çıxarılan gil digər rayonda çıxarılan gildən rənginə, yağlılığa, sıxlılığına görə fərqlənir. Amma gil hər yerdə var. Rəssam kətan üzərində işləyəndə əsərin taleyini rənglərin köməyi ilə həll edir, heykəltaraş isə isti barmaqlarının izi ilə.

*– İndiyədək çox sayda heykəltaraşlıq nümunəsi yaratmısınız. Həm iri, monumental işləriniz var, həm də kiçik ölçülü əsərləriniz. Dövlət sifarişi ilə də, sadəcə, ürəyinizin istəyi ilə də. Bu nümunələrin yaranma prosesində fərq varmı?*

– Yox… Ümumiyyətlə, hər bir əsər düşüncənin məhsuludur. Hələ qarşında heç nə yoxdur, amma sən (alnının ortasını göstərir) buradan, üçüncü gözünlə onu görürsən. Düşündükcə, fikirləşdikcə, artıq düzəldəcəyin nümunə gözlərinin qarşısında formalaşır. Bax, iş prosesi belə başlayır. Hərçənd bu proses səni ilkin düşüncələrindən tamam ayrı istiqamətə də apara bilər və ortaya tamam fərqli ideyanı daşıyan əsər çıxar. Rəssam, heykəltaraş nəyinsə, kiminsə şəklini çəkmir, o, obraz yaradır. Yadınıza salın, nə qədər portret, heykəl görmüsünüz. Hansı portretdə obraz varsa, o, portreti yaradılana, naturaya oxşayır. Əgər obraz yoxdursa, fotorqafik dəqiqliklə işlənsə də, oxşamır…

*– Deməli, əsas obrazı tapmaqdır.*

– Bəli. Bir misal çəkim. Bizim xalqımız Səttar Bəhlulzadəni çox sevir. Niyə?

*– Yəqin bir də hər əsərinə ürəyini qoyduğuna görə...*

– Həm də obraz yaratdığına görə!... O, sadəcə, təbiəti çəkməyib, o, təbiətin də obrazını yaradıb. Buna görə də sənət adamı ürəyi ilə düşünüb, qəlbi ilə hiss etmək çox vacibdir.



*– Fuad müəllim, neçə illərdir ki, pedaqoji fəaliyyətlə də məşğulsunuz. Yaradıcılıq üzrə prorektor kimi tələbələrlə bağlı hansısa mühüm qərar vermək zamanı göləndə ağlınızın diktəsinə qulaq asırsınız, yoxsa qəlbinizin səsinə?*

– Hər ikisi də olur. Bilirsiniz, biz sənət adamları dərs deyəndə tələbələrə həmkarımız kimi yanaşırıq. Qarşımızdakı məktəbli deyil, hələ peşəkar sənətçi deyilsə də, istedadlı gəncdir. Bəzən tələbələrin arasında şuluğu da olur, bunu yoluna qoymaq mümkündür… Amma onlardan mənim ömür həsr etdiyim sahəyə laqeyd, ya da saymazyana münasibət görəndə qəlbimə dəyir. Buna nahaq yerə incə sənət demirlər ki? Bu işlə elə-belə, candərdi məşğul olmaq olmaz…



*– Bəs akademiyaya təsadüfən düşən, "gəlmişəm, oxuyum, sonrasına baxarıq" düşüncəli tələbə çoxdur?*

– Təəssüf ki, var. Bilirsiniz, yaradıcı sənət məktəbinə sevib gəlmək, öz bacarığına uyğun təhsil müəssisəsi seçmək lazımdır, beş ixtisas arasından birinə düşmək yox!... Biz heykəltaraş, rəssam olmaq istəyən istedad sahiblərinə bilik verə, istiqamət göstərə, vərdişlərini cilalaya bilərik. Amma heç bir təhsil ocağı məzuna diplomun arasında istedad və həvəs vermir.

*– Bəzən deyirlər ki, heykəltaraşlıq ağır sənətdir…*

– Mənə də deyirlər o sözü. Hətta deyirlər ki, yaş artdıqca bu işlə məşğul olmaq çətinləşir… Amma o çətinliyi, o ağırlığı hiss etmirəm. Çünki sənətimi sevirəm. Böyük layihə üzərində işləyəndə iri gil parçalarını yoğurmalı, əzməli, istədiyin formaya salmalı olursan… Bir qədər çox yeriyəndə adamın ayaqları necə ağrıyırsa, mənim hiss etdiyim yorğunluq da ona bənzəyir. Dincəlirsən, keçir.

*– Davamlı olaraq işləyirsiniz?*

– Desəm ki, hər gün filan saatdan filan saata kimi, yalan olar. Akademiyada çalışmalar, evin qayğıları… Amma yaxşı olardı ki, hər gün işləyəsən.

*– Formada qalmaq üçün?*

– Təkcə formada qalmaq üçün yox. Siz özünüz də yazarsınız. Yarımçıq qoyduğunuz yazıya sonradan qayıda bilirsiniz?

*– Nadir hallarda. Fikrin ucu gedib başqa tərəfə çıxır.*

– Çoxdanın söhbətidir. Fransaya ayyarımlıq yaradıcılıq ezamiyyəti var idi. Elə arzulayırdım ki, gedim, muzeyləri gəzim, sənətimlə bağlı dünyagörüşümü artırım. Amma ürəyimin dərinliyində bir səs deyirdi ki, getmə. Çünki bir fikrim var idi, onu işləmək istəyirdim. Hiss edirdim ki, bu qədər fasilə versəm, işləyə bilməyəcəm… Nə isə, getdim. Fransadan qayıtdıqdan sonra həmin ideyanı gerçəkləşdirə bilmədim. Çünki ideya yadımda idi, amma onun təcəssümü yox. Daha həmin ideyaya qayıda bilmədim.

*– Bayaq emalatxanada bir fikir söylədiniz. Dediniz ki, insanlar məktəbdə yazıb-oxumağı, mütaliə etməyi öyrəndikləri üçün ədəbiyyat onlara təsviri sənətdən daha yaxındır. İnsanlara uşaq yaşlarından təsviri sənəti hiss etməyi, anlamağı öyrətsəydilər, cəmiyyət necə olardı?*

– Təsviri sənəti anlayan, sevən daha çox olardı. Məsələn, bir qadın portretinə baxıb nə gözəl qadındır deyib keçməzdilər (gülür). Deyərdilər ki, rəssam rəng keçidlərini necə gözəl həll edib, qadının ovqatını məharətlə tutub.

*– Aydındır. Deməli, cəmiyyət sənətdən daha çox zövq alardı…*

– …

***



Həmin gün Xalq rəssamı Fuad Salayevlə çox mətləbdən danışdıq. Söhbətimizin qisminin qəzetdə verilməsini özü istəmədi, bir hissəsi də müsahibənin məntiqi axınına uyğun gəlmədi, daha dəqiq desək, o söhbətlərin başqa yazılara mövzu olacağını düşündüm.

Lakin onun emalatxanasından çıxandan sonra yolboyu müsahibənin əvvəlində dediyi fikir beynimdə xeyli fırlandı...

Məncə, bir məqamda Fuad müəllim tam haqlı deyildi. Çünki bəstəkarlıq, yazıçılıq, rəssamlıq kimi yaradıcı sənətlər təkcə Allah vergisi sayılan istedadın, qabiliyyətin sayəsində öz sahibini seçkinlər cərgəsinə çıxarmır, ona maddi və mənəvi üstünlüklər bəxş etmir. Deyilənlərə nail olmaqdan ötrü gərək yorulmadan çalışasan, öyrənəsən, zəhmətə qatlaşasan, sənin əməyinin və istedadının məhsuluna tələbat az olduqda belə, məsləkdən üz döndərməyəsən, zaman-zaman çətinliklərə dözəsən, hər şeyə rəğmən yaratmaq eşqini yaşatmağa qadir olasan. Bütün bunlardan şərəflə keçib, sınaqlardan salamat çıxandan sonra 80 yaşlı Fuad Salayev kimi deyəcəksən: nə qədər ki, ayaq üstəyəm, yaşayıram, düşünürəm, deməli, yaradacağam.

**Gülcahan Mirməmməd**

## Xatirə təqvimi 27–29 sentyabr

### Azərbaycan

**27 sentyabr 1930** – Əməkdar mədəniyyət işçisi Nina Qriqoryevna Fişeva (1930 – 29.8.2010) Bakıda anadan olub. Ömrünü arxiv işinə həsr edib, 1959-2009-cu illərdə Azərbaycan Respublikası Dövlət Foto-Kino Sənədlər Arxivinin direktoru işləyib.

**27 sentyabr 1931** – Əməkdar incəsənət xadimi, musiqişünas, professor Bilqeyis Mir Əbdül Qəni qızı Qarayeva-Məmmədova (1931 – 3.7.2010) anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) prorektor işləyib.

**27 sentyabr 2012** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Qasım oğlu Atakişiyev (20.5.1940 – 2012) Füzuli rayonunda anadan olub. Musiqili Komediya, Ağdam, Gəncə teatrlarında çalışıb.

**27 sentyabr 2013** – Prezident İlham Əliyev Xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**27 sentyabr 2021** – Xalq artisti, tanınmış müğənni Teymur İbrahim oğlu Mirzəyev (1936–2021) vəfat edib. "Qaya" vokal kvartetinin bədii rəhbəri olub.

**28 sentyabr 1953** – Xalq artisti Əjdər Qüdrət oğlu Həmidov (1953 – 24.11.2020) Şabran rayonunda anadan olub. Sumqayıt teatrında çalışıb, 1990-cı ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**28 sentyabr 1978** – Görkəmli yazıçı, ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Mir Cəlal Əli oğlu Paşayev (26.4.1908 – 1978) vəfat edib. "Bir gəncin manifesti", "Dirilən adam", "Yaşıdlarım" və s. romanların müəllifidir.

**28 sentyabr 1985** – Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Cavan (Hüseyn Mikayıl oğlu Əliyev; 1916-1985) vəfat edib. Cənubi Azərbaycanın Qaradağ mahalında doğulub, 1946-cı ildən Goranboy rayonunda yaşayıb.

**29 sentyabr 1953** – Əməkdar rəssam Rəşid İbrahim oğlu Həsənov (Rəşid Şərif; 1953 – 26.3.2020) Bakının Mərdəkan qəsəbəsində anadan olub. Karikaturaçı və teatr rəssamı kimi tanınıb, Dövlət Yuğ Teatrında çalışıb.

**29 sentyabr 1962** – Əməkdar artist, televiziya diktoru Bəxtiyar Nadir oğlu Şərifzadə (1962 – 24.6.2016) Qax rayonunda anadan olub.

**29 sentyabr 2003** – Ədəbiyyatşünas alim, şair-publisist Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 25.12.1934 – 2003) vəfat edib.

### Dünya

**27 sentyabr 1871** – İtalyan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1926) laureatı Qrasiya Deledda (1871–1936) anadan olub.

**28 sentyabr 1573** – İtalyan rəssamı Mikelancelo Karavaco (Michelangelo Merisi da Caravaggio; 1573 – 18.7.1610) anadan olub. Məşhur əsərləri: "Yudif və Olofern", "Tövbə edən Mariya Maqdalina", "Müqəddəs Pyotrun əzabkeşliyi" və s.

**28 sentyabr 1803** – Fransız yazıçısı Prosiper Merime (Prosper Merimee; 1803–1870) anadan olub. Yazıçının "Karmen" novellası əsasında bəstəkar Jorj Bize opera yazıb, "Matteo Falkone" novellası əsasında Azərbaycan rejissoru Tofiq Tağızadə eyniadlı film (1960) çəkib.

**28 sentyabr 1915** – Məşhur rus teatr rejissoru, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı Georgi Aleksandroviç Tovstonoqov (1915 – 23.5.1989) Tbilisidə anadan olub.

**28 sentyabr 1924** – İtalyan aktyoru Marçello Mastroyani (Marcello Vincenzo Domenico Mastroianni; 1924 – 19.12.1996) anadan olub. Filmləri: "Şirin həyat", "İtalyansayağı boşanma", "Səkkiz yarım" və s.

**29 sentyabr 1547** – İspan yazıçısı Migel de Servantes (Miguel de Cervantes y Saavedra; 1547 - 23.4.1616) anadan olub. "Don Kixot" romanı ilə şöhrət qazanıb. Digər əsərləri: "Parnasa səyahət" (poema), "Persiles və Sigizmunda" (roman).

**29 sentyabr 1810** – İngilis yazıçısı Elizabet Qaksell (Elizabeth Cleghorn Gaskell; 1810-1865) anadan olub.

**29 sentyabr 1904** – Rus yazıçısı Nikolay Alekseyeviç Ostrovski (1904-1936) anadan olub. Əsərləri: "Polad necə bərkidi?", "Fırtınadan doğulmuşlar".

**29 sentyabr 1912** – İtalyan kinorejissoru Mikelancelo Antonioni (Michelangelo Antonioni; 1912 - 30.7.2007) anadan olub. Avropanın əsas kinofestivallarının qalibi, fəxri "Oskar" mükafatçısıdır.

**29 sentyabr 1913** – Amerika kinorejissoru Stenli Kramer (Stanley Earl Kramer; 1913 - 19.2.2001) anadan olub. Filmləri: "Nürnberq prosesi", "Bu çılğın, çılğın, çılğın dünya", "Domino prinsipi" və s.

**Hazırladı: V.Orxan**

# Opera səhnəmizdən keçən Xanlar Haqverdiyev

## Üzeyir Hacıbəyli onun sənətindən razı qalmışdı...

Ötən əsrin birinci yarısında dahi bəstəkar Üzeyir Hacıbəyli ilə başlanan klassik opera sənəti və xalq musiqisinin vəhdətdə inkişafı zaman ötdükcə daha da professional səviyyəyə yüksəlir. Həmin dövrdə opera teatrının inkişafında özünəməxsus rolu olan sənətkarlarımızdan biri də Xanlar Haqverdiyev idi. O, uzun illər Opera və Balet Teatrının solisti kimi bir-birindən maraqlı obrazlar yaradıb.



Xanlar Məmməd bəy oğlu Haqverdiyev 26 sentyabr 1906-cı ildə Ağdam rayonunun Seyidli kəndində dünyaya göz açıb. Valideynləri onun mükəmməl təhsil alması üçün böyük səy göstəriblər. Xanlar isə erkən çağlardan musiqiyə, xüsusilə ifaçılıq sənətinə maraq göstərir. El şənliklərində tanınmış xanəndələrin ifaları ilə maraqlanır. Ara-sıra özü də ifaçı kimi musiqisevərlərin qarşısına çıxır. Şaqraq və məlahətli səsi ilə dinləyicilərdə xoş ovqat yaradır. Beləliklə, Xanlar sənətdə öz yolunu seçir. Onun bu sahəyə yönəlməsində tanınmış aktyor Əhməd Ağdamski yardımçı olur. Xanların Üzeyir Hacıbəyli ilə görüşünün təşəbbüskarı da Ə.Ağdamski idi. Dahi bəstəkar onun musiqi duyumu və məlahətli səsindən razı qalmışdı.

Xanlar Haqverdiyev 1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) Vokal şöbəsinə daxil olur. Çalışqanlığı və istedadı sayəsində ilk günlərdən müəllimlərinin diqqətini cəlb edir. Qısa vaxt ərzində dünya klassik musiqi sənətinin sirlərinə yiyələnir. O, eyni zamanda Qarabağ xanəndəlik məktəbi ilə maraqlanır. Böyük xanəndə Seyid Şuşinskidən muğam sənətini öyrənir. İstedadı gənc sənət adamlarının diqqətindən yayınmır. O, 1929-cu ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının xor bölməsinə qəbul edilir. Geniş səs diapazonu ilə yanaşı, bənzərsiz parlaq diksiyası ilə yalnız xorda ifa etmir, həm də bəzi tamaşalarda epizodik rolları canlandırır. Ü.Hacıbəylinin "Leyli və Məcnun"unda Zeyd, Əbül-Qeys, "Əsli və Kərəm"ində Sofi, Z.Hacıbəyovun "Aşıq Qərib"ində Aşıq Səlim kimi obrazların öhdəsindən məharətlə gəlir. Xanəndə eyni tamaşada gah "Mənsuriyyə" zərbi muğamı, gah da "Şur" dəsgahı üstə füsunkar bir avazla oxuyur və tamaşaçıları heyran edir.

Xanlar Haqverdiyev 1931-ci ildə ali təhsilini uğurla başa vurur. Fəaliyyətini Azərbaycan Dövlət Opera və Balet Teatrında davam etdirir. Aktyor-xanəndə artıq bütün muğam operalarında baş rollara dəvət olunur. Hüseynqulu Sarabski, Şövkət Məmmədova, Hüseynağa Hacıbabəyov, Əli və Qəmbər Zülalov qardaşları, İsmayıl Eloğlu, Münəvvər Kələntərli, Həqiqət Rzayeva və s. kimi dövrünün görkəmli sənətkarları ilə eyni səhnəni bölüşür.

Tanınmış sənətkar milli teatr və musiqi mədəniyyətimizin ölkə hüdudlarından kənarda təbliği üçün də bilik və bacarığını əsirgəmir. Qastrol səfərlərində iştirakı və sənət dostlarının zəngin təcrübəsi onun səhnə səriştəsini daha da artırır. Xanəndə təkcə opera tamaşalarında deyil, həm də muğam və xalq mahnımızın mahir ifaçısı kimi Azərbaycan Dövlət Şərq Orkestrinin müşayiəti ilə tez-tez konsertlərə qatılır.

O, 1963-cü ilədək Opera və Balet Teatrının səhnəsində M.Maqomayevin "Nərgiz", F.Əmirovun "Sevil", Q.Qarayev və C.Hacıyevin "Vətən", Ə.Bədəlbəylinin "Nizami", P.Çaykovskinin "Yevgeni Onegin", R.Qliyerin "Şahsənəm", R.Mustafayevin "Vaqif", C.Verdinin "Siciliya axşamları" və başqa operalarda, operettalarda yaddaqalan obrazlar yaradıb, tamaşaçıların rəğbətini qazanıb.

O, təqaüdə çıxdıqdan sonra belə teatrdan ayrılmır, gənc aktyorların, yeni xanəndələrin yetişməsi üçün öz dəstəyini əsirgəmir.

Azərbaycanın musiqi və səhnə mədəniyyətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilən Xanlar Haqverdiyev 1939-cu ildə Türkmənistanın, 1956-cı ildə Azərbaycanın "Əməkdar artisti" fəxri adlarına layiq görülür.



Xanlar Haqverdiyev 1959-cu ilin may ayında Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə də uğurla iştirak edib.

Musiqili səhnə sənətimizin inkişafında böyük rolu olan Xanlar Haqverdiyev 5 dekabr 1980-ci ildə, 74 yaşında Bakıda vəfat edib.

**S.Fərəcov**

# Pişəvərinin "Gizli imzalı məqalələr"i işıq üzü görüb

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri professor Rəhim Əliyevin ideya müəllifliyi və tərtibçiliyi ilə tanınmış ictimai-siyasi və dövlət xadimi, yazıçı, tərcüməçi, ədəbiyyatşünas, qüdrətli publisist Mir Cəfər Pişəvərinin (1892-1947) "Gizli imzalı məqalələr (1945-1946)" kitabı işıq üzü görüb.




Kitabı ərəb əlifbasından Hökümə Allahverdiyeva, farscadan İbrahim Quliyev Babək, Yədulla Kənani, Arif İbrahimov, Hökümə Allahverdiyeva və Həsən Səfəri çeviriblər. Filologiya elmləri doktoru Rəhim Əliyev nəşrə "M.C.Pişəvəri "Azərbaycan" qəzetində və ya gizli "Novruz" imzası haqqında" adlı geniş ön söz yazıb.

M.C.Pişəvərinin "Azərbaycan" qəzetində müxtəlif imzalarla çoxlu məqalələri çıxıb. Bu kitabda ilk dəfə olaraq ancaq "Novruz" gizli imzası ilə 80 il əvvəl dərc edilmiş anadilli və farsca məqalələrin tərcümələri yer alıb. Nəşrdə Pişəvərinin öz müəllimi, mütəfəkkir, siyasətçi Şeyx Məhəmməd Xiyabani (1880-1920) haqqında geniş araşdırması da ilk dəfə təqdim olunub.

Bütün bu faktların kitab şəklinə salınması, səksən il yubanması sovet rejiminin Cənubi Azərbaycandakı Milli Hökumətin tarixinə və M.C.Pişəvərinin o dövrdə fəaliyyətinə qoyduğu senzura ilə bağlı idi. 1945-1946-cı illəri əhatə edən M.C.Pişəvərinin "Azərbaycan" qəzetində dərc olunan gizli imzalı məqalələrindən ibarət kitab güneyli-quzeyli ədəbiyyatımızı və tariximizi araşdıran tədqiqatçılar üçün maraqlı mənbələrdəndir.

№71 (2040)
27 sentyabr 2023
www.medeniyyet.az

# Türkiyə Mədəniyyət Yolu Festivalı Konyada davam edir



Xəbər verdiyimiz kimi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ölkənin mədəni irsini, incəsənətini, tarixi abidlərini, özünəməxsus kulinariyasını dünyaya daha dolğun şəkildə tanıtmaq məqsədi daşıyan "Türkiyə Mədəniyyət Yolu Festivalları" adlı irimiqyaslı layihə həyata keçirilir.

2021-ci ildə ilk dəfə İstanbulda "Beyoğlu Mədəniyyət Yolu Festivalı" ilə əsası qoyulan, 2022-ci ildə Ankara, Çanaqqala, Diyarbəkir, Konya, Nevşehir kimi şəhərləri də əhatə edən festivallar proqramı Türkiyə Cümhuriyyətinin 100-cü ilində xüsusilə geniş şəkildə təşkil edilib.

"Türkiyə Mədəniyyət Yolu Festivalları – 2023"ün növbəti ünvanı 23-30 sentyabr tarixlərində Mövlanənin (Cəlaləddin Rumi) şəhəri – dünyada mistik musiqinin görüşmə nöqtəsi sayılan Konyadır. Buradakı silsilə tədbirlərin sırasına hər il müxtəlif ölkələrdən sənətçiləri bir araya gətirən Beynəlxalq Konya Mistik Musiqi Festivalı da daxildir.

Sentyabrın 23-də 20-ci Beynəlxalq Konya Mistik Musiqi Festivalı başlayıb. Konya Böyükşəhər Bələdiyyəsinin də dəstək verdiyi festivalın ilk günü Mövlanə meydanında 250 "səma rəqqası"nın iştirakı ilə möhtəşəm göstəri – "Səma ayini" ("Ayin-i Şerif") şousu təqdim olunub.

Festivalın tədbirləri həm açıq havada (Karatay, Kayalıpark, Kılıçarslan, Mövlanə, Zəfər meydanları, Mövlanə Muzeyinin bağçası), həm də şəhərin mədəniyyət mərkəzlərində gerçəkləşir. O cümlədən Daş Bina Mədəniyyət və İncəsənət Mərkəzində müxtəlif sərgilər, ebru sənəti nümayişi və s. proqramlar təşkil olunub.

Beynəlxalq Konya Mistik Musiqi Festivalına həm ölkənin bölgələrindən, həm də xarici ölkələrdən kollektivlər qatılıb.




24 sentyabrda Kılıçarslan meydanında "Zakiran Nevbe Camaatı Bektaşi Nəfəsləri" ansamblı çıxış edib. Sentyabrın 25-də İstanbul Dövlət Müasir Xalq Musiqisi Ansamblı sənətsevərlərlə görüşüb.

Proqram çərçivəsində sentyabrın 26-da Əlcəzairdən gələn ifaçılar Şimali Afrika sufi musiqisi konserti təqdim edəcəklər. Sentyabrın 27-də Şanlıurfa Dövlət Türk Xalq Musiqisi Ansamblının konserti və Birləşmiş Ərəb Əmirliklərindən gələn festival iştirakçılarının təqdimatında bədəvi musiqisi axşamı olacaq. Sentyabrın 28-də festivalın daha bir qonaq kollektivi – Qazaxıstandan "Yesefi" qrupu Xoca Əhməd Yəsəvi irsindən təqdimatla sənətsevərlərin qarşısına çıxacaq.

Onu da qeyd edək ki, Konyada Mədəniyyət Yolu Festivalına müxtəlif ölkələrdən mədəniyyət, incəsənət xadimləri ilə yanaşı, media mənsubları da qatılıb.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi nəzdində Turizm Tanıtım və İnkişaf Agentliyi – TGA-nın təşkilatçılığı ilə Azərbaycan, Özbəkistan, Qırğızıstan, Bosniya-Herseqovina, Macarıstan, Rumıniya və Serbiyadan media mənsubları festival çərçivəsində tədbirləri izləyirlər.

**V.Kamal**

# Türk dünyası təşkilatlarının ortaq nəşr layihəsi Qırğızıstanda təqdim olunub

Qırğızıstanın Bişkek şəhərində Alykul Osmonov adına Qırğızıstan Milli Kitabxanasında Türk Akademiyasının və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə əməkdaşlığı çərçivəsində nəşr olunan "Saqımbaydın Manası" kitabının təqdimat mərasimi keçirilib.



Layihə çərçivəsində "Manas" eposunun Saqımbay Orozbakovun variantı Qırğızıstanın görkəmli sənətçisi və manasçısı Rısbay İsakovun redaktorluğu ilə ilk dəfə nəsr şəklində yayımlanıb.

Tədbirdə Qırğız Respublikasının Prezident Administrasiyası Siyasi və iqtisadi araşdırmalar şöbəsinin müdiri Oktyabr Kapalbayev dövlət katibi Suyinbek Kasmanbetovun təbrik məktubunu oxuyaraq layihənin əhəmiyyətini vurğulayıb.

Türk Akademiyasının prezidenti Şahin Mustafayev bildirib ki, yarım milyon misradan ibarət "Manas" dastanı dünya miqyasında və Türk dünyasında ən irihəcmli dastan hesab olunur. V-XII əsrlərdə meydana çıxan "Manas" "Oğuz Kağan" dastanı ənənəsi ilə indiki dövr arasında simvolik əlaqə yaradır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva şifahi ənənə ilə əsrlər boyu nəsildən-nəslə ötürülən "Manas"ın qırğız xalqının daxili dünyasını, mənəviyyatını əks etdirdiyini bildirib. "Manas" qırğız xalqının gücüdür. Eposda qırğızların qəhrəmanlıq səhifələri, Vətənə sevgisi, torpağın müdafiəsinə hər zaman hazır olması özünü göstərir", – deyə o qeyd edib.

G.Əfəndiyeva Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Manas bizim hamımızın, türk xalqlarının hamısının ulu babasıdır" sözlərini xatırladaraq eposu Türk dünyasını birləşdirən amil kimi qiymətləndirib.

Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin birinci müavini Kayrat İmanaliyev, Joqorku Keneşin (Milli Məclis) deputatı Nurcigit Kadırbekov, Azərbaycanın səfiri Lətif Qəndilov, akademik Abdıldacan Akmataliyev və başqaları çıxış edərək müasir dövrdə qədim türk dastanlarının araşdırılmasının və daha dərindən öyrənilməsinin əhəmiyyətini vurğulayıblar.

Sonda G.Əfəndiyevaya və Şahin Mustafayevə "Manas" medalı təqdim olunub.

# Tanınmış tarzən Anqolada festivala qatılıb

20-24 sentyabr tarixlərində Anqolanın paytaxtı Luanda şəhərində "Ngola Symphony" musiqi festivalı keçirilib.



Festivalda ölkəmizi Beynəlxalq Muğam Mərkəzinin direktoru Əməkdar artist, tarzən Sahib Paşazadə təmsil edib. Bununla da Mərkəzi Afrika ölkəsi Anqolada Azərbaycan musiqisi ilk dəfə təbliğ olunub.

Sahib Paşazadə "Simfonik incəsənət musiqi savadının və estetik-performativ həssaslığın təkmilləşdirilməsi vasitəsi kimi" devizi altında keçirilən festivalın açılış mərasimində Anqolanın tanınmış sənət adamları və digər ölkələrdən fəxri qonaqlarla eyni səhnəni bölüşüb.

Qeyd edək ki, Nigeriyada fəaliyyət göstərən Azərbaycanın Dostları Təşkilatının (ADT) və Anqoladakı İncəsənət və Mədəniyyət Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan musiqisinin dünyada təbliği məqsədilə "Birləşmiş səslər" xeyriyyə layihəsi həyata keçirilir. ADT-nin təsisçisi və prezidenti, uzun illərdir Afrikada yaşayan Billurə Bayramova-Bernardın sözlərinə görə, layihə çərçivəsində Anqolanın Camunga musiqi məktəbi simfonik orkestrinin solistləri və Anqola İncəsənət və Mədəniyyət Fondunun tələbələri üçün Sahib Paşazadə tərəfindən ustad dərsləri də keçirilib. Ustad dərslərində yerli tələbələrə Azərbaycan musiqisi və tarla bağlı məlumat verilib, alətin tarixi və ifaçılıq xüsusiyyətlərindən söz açılıb.

# Hakimiyyət və sehr...

## Misirdə yeni qiymətli artefakt tapılıb

Arxeoloqlar qədim Misir sərdabələrindən birində yeni qiymətli artefakt tapılıb. Bu tapıntı fironların hakimiyyəti barədə ilkin təsəvvürlərə işıq salır.



Söhbət firon II Senusertin qızı şahzadə Sat-Hathor-İunitin sərdabəsində tapılmış pektoral və boyunbağıdan gedir. Həmin zərgərlik nümunələri e.ə. 1888-1887-ci illərdə düzəldilib.

4,5x8,2 sm ölçülü pektoral gözəlliyi və detalların zənginliyi ilə görənləri heyran edir. 372 ədəd cilalı yarımqiymətli daş ilə bəzədilmiş pektoralın üstündəki ziqzaqabənzər xətlər suyun yaranışının rəmzidir. Misir mifologiyasına görə, torpaq və kosmos da sudan yaranıb.

Bu zinət əşyalarının sehrli qüvvə daşıdığı da güman edilir ki, məhz bu cəhət hökmdar ailəsinin qadınlarına ilahi qüdrət bəxş edirmiş.

Tarixçilər israr edirlər ki, Sat-Hathor-İunit 12-ci sülalənin üç qüdrətli fironunun – II Senusert, III Senusert və III Amenemhetin dövründə yaşayıb.

Tapılan artefaktlar qədim Misir incəsənətinin və dini görüşlərinin mühüm sübutu olmaqla yanaşı, həm də bizə əski çağlarda bu ölkədəki hakimiyyət və sehr barədə qədim təsəvvürləri daha yaxşı anlamağa imkan verir.

# "Ay çiçəyi qatilləri" oktyabrda dünya prokatına çıxacaq

Rejissor Martin Skorsezenin çəkdiyi və baş rolda Hollivud ulduzları Robert de Niro və Leonardo di Kaprionun yer aldığı "Ay çiçəyi qatilləri" filminin kütləvi nümayişi oktyabrın 20-dən başlayacaq.



Qeyd edək ki, filmdə yer alan hadisələr ötən əsrin 20-ci illərində Amerikada, Oklahoma ştatında baş verir. Süjetin mərkəzində məskunlaşdığı ərazidə neftin aşkarlanması səbəbindən Oseyc tayfasının məhvi dayanır. ABŞ tarixində ən dəhşətli cinayətlərdən biri hesab edilən məsələ Federal Təhlükəsizlik Bürosunun detektivləri tərəfindən araşdırılır...

# "Biq-Ben"in yaradıcıları müsəlman memarlığından ilham alıblar

1856-cı ildə İngiltərənin London şəhərində ucaldılmış "Biq-Ben"in müsəlman memarlığında məşhur olan abidənin oxşarı olduğunu bilirdinizmi?



Mütəxəssislər 150 ildən çoxdur ki, Londonun rəmzi sayılan saat qülləsi ilə 1090-cı ildə indiki Suriyanın Hələb şəhərində tikilmiş və təəssüf ki, 2013-cü ildə müharibə nəticəsində dağıdılmış Böyük məscidin minarəsi arasında bənzərlik olduğu fikrindədirlər.

"Biq-Ben" və parlament binası qotik üslubunda tikilib. İtiuclu tağ, üçyarpaq tağ, yivli tonozlar və qotik üslubunda istifadə edilən bir çox başqa elementlər məhz müsəlman Şərqindən əxz edilib. Bu elementlər VII əsrdən etibarən İslam memarlığında meydana çıxmağa başlayıb.




Olaylar, faktlar (26–29 sentyabr)

### 652 il əvvəl...



**26 sentyabr 1371-ci ildə** Serbiya ərazisindəki Maritsa çayı sahilində serb, xorvat, bolqar və macarların müttəfiq ordusu ilə Osmanlı qoşunları arasında döyüş olub. Sultan İldırım Bəyazidin qoşunları müttəfiqlərin ordusunu darmadağın edib. Bu qələbədən sonra Serbiya və indiki Bolqarıstanın əsas hissəsi, habelə Makedoniya və Qərbi Frakiya Osmanlının nəzarətinə keçib. Osmanlının Balkan yarımadasında hökmranlığı təxminən beş əsr sürdü.

### 489 il əvvəl...

**27 sentyabr 1534-cü ildə** Sultan I Süleymanın (Qanuni) başçılıq etdiyi Osmanlı ordusu Şah Təhmasibin başçılıq etdiyi Səfəvi qoşunlarını məğlub edərək Cənubi Azərbaycanın bir hissəsini, o cümlədən Təbrizi ələ keçirib. Lakin yerli əhalinin müqaviməti, eləcə də qışın sərt keçməsi və ərzaq çatışmazlığı Osmanlı qoşunlarını geri dönməyə məcbur edib.

### 250 il əvvəl...

**28 sentyabr 1773-cü ildə** Rusiyada Yemelyan Puqaçovun rəhbərliyi ilə kəndli müharibəsi başlayıb. Puqaçovun Uralda (Yatski şəhəri) başladığı üsyan tezliklə geniş miqyas alıb. Hərəkatın genişləndiyini görən İmperatriçə II Yekaterina onun üzərinə qoşun hissələri göndərib. Üsyan yalnız 1774-cü ilin sonunda yatırıldı və 1775-ci ilin yanvarında Puqaçov və ən yaxın silahdaşları Moskvada edam edildilər.

### 112 il əvvəl...

**29 sentyabr 1911-ci ildə** İtaliya Osmanlı dövlətinə müharibə elan edərək onun Şimali Afrikadakı müstəmləkələri üzərinə hücuma keçib. Tezliklə Liviyanın bir hissəsi İtaliya qoşunları tərəfindən işğal olunub. Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasının zəifləməsi əksər Avropa dövlətlərini onun müstəmləkələrini bölüşdürməyə şirnikləndirmişdi.

### 105 il əvvəl...

**26 sentyabr 1918-ci ildə** Azərbaycanın bütün ərazisində Cümhuriyyət hakimiyyətini bərqərar etmək üçün hərbi əməliyyatları davam etdirən Nura paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusu Qarabağda erməni-daşnak qüvvələrinə güclü zərbə vuraraq Şuşa şəhərinə daxil olub. Əhali xilaskar ordunu təntənə ilə qarşılayıb.



### 85 il əvvəl...

**29 sentyabr 1938-ci ildə** Münxendə Almaniya, Britaniya, Fransa və İtaliya rəhbərləri Çexoslovakiyanın almanlar yaşayan Sudet bölgəsi ilə bağlı saziş imzalayıblar. Britaniya baş naziri Nevill Çemberlen, Fransa baş naziri Eduard Daladye və İtaliyanın faşist lideri Benito Mussolini Sudet bölgəsinin Almaniyaya birləşdirilməsi barədə Adlof Hitlerin təklifinə razılıq veriblər. I Dünya müharibəsinədək Almaniyanın ərazisi olmuş bölgə müharibədə almanların məğlub olmasından sonra Çexoslovakiyanın tərkibinə keçmişdi.

### 32 il əvvəl...

**27 sentyabr 1991-ci ildə** Azərbaycan Kommunist Gənclər Təşkilatının – komsomolun fəaliyyətinə xitam verilib. Ümumittifaq Kommunist Gənclər İttifaqının Moskvada 22-ci fövqəladə qurultayda özünü buraxmasından sonra bütün müttəfiq respublikalarda komsomol təşkilatlarının ləğvi başlanmışdı. Bir qədər əvvəl isə (14 sentyabr 1991-ci il) Azərbaycanda Kommunist Partiyası fəaliyyətini dayandırmışdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5048. **Sifariş:** 2540
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641